## İranda aksiyalarda 17 nəfər ölüb

61 təcili tibbi yardım və 25 yanğınsöndürən maşın yandırılıb



**İranda aksiyalarda 17 nəfər ölüb, 95 nəfər yaralanıb.**

APA-nın Tehran bürosunun İran dövlət televiziyasına istinadən verdiyi məlumata görə, aksiyalarda iştirak edən vətəndaşlar və polislərdən 17 nəfər ölüb.

Yaralıların sayı 95 nəfərdir.

Aksiyalarda 61 təcili tibbi yardım və 25 yanğınsöndürən maşın yandırılıb.

*Qeyd edək ki, İranda Məhsa Əmininin "Əxlaqi Təhlükəsizlik Polisi"nin nəzarətində ölməsi ilə bağlı etiraz aksiyalarının keçirildiyi şəhərlərin sayı ən azı 83-ə çatıb.*



## Əflatun Amaşov "Xalq" qəzetinin baş redaktoru təyin edilib

**Mətbuat Şurasının sədri Əflatun Amaşov "Xalq" qəzetinin baş redaktoru təyin edilib.**

Bu barədə məlumatı Əflatun Amaşov özü təsdiq edib.

O, dünən kollektivə təqdim olunub.

*Qeyd edək ki, "Xalq" qəzetinin əvvəlki baş redaktoru Həsən Həsənov olub.*


№ 173 (5694), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 24 sentyabr 2022-ci il (şənbə)




## Rusiyanın Gürcüstanla sərhədində böyük tıxac

Son üç gündə Rusiyanı tərk etmək istəyənlərin sayı artıb

**Rusiyanı tərk etmək istəyənlərdən 2 minə yaxın minik avtomobili Rusiyanın Gürcüstanla sərhədindəki keçid məntəqəsinin qarşısında toplanıb.**

Bu barədə Rusiyanın Şimali Osetiya Respublikasının Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. "Şimali Osetiya-Alaniya Respublikası ərazisində Şimali Osetiya-Alaniya Respublikasına gələn və Yuxarı Lars keçid məntəqəsindən keçmək üçün növbə gözləyən 2 000-ə yaxın yüngül avtomobilin xeyli sayda yığılması müşahidə olunur", - məlumatda bildirilib.

(səh.5)



## "Cəzasızlıq növbəti təxribatlara yol açır"

Ceyhun Bayramov: "Səfirliklərimizə hücum edənlərin tapılıb cəzalandırılmasını tələb edirik"

**"Diplomatik nümayəndəliklərimizə hücum tamamilə qəbuledilməzdir".**

Bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov AzTV-yə müsahibəsində deyib.

Nazir bildirib ki, bu, beynəlxalq münasibətlərin təməl prinsiplərinin tapdalanmasıdır...

(səh.2)

## Yaqub Eyyubov Paşinyanın müavini ilə sərhəddəki vəziyyəti müzakirə edib



**Azərbaycan Baş nazirinin müavini Yaqub Eyyubovla Ermənistan Baş nazirinin müavini Mqer Qriqoryan ayaqüstü söhbət ediblər.**

Yaqub Eyyubov və Mqer Qriqoryanın söhbəti Moskvada MDB İqtisadiyyat Şurasının iclası çərçivəsində baş tutub.

MDB İqtisadiyyat Şurasının məhdud formatda keçirilən iclasından sonra fasilə zamanı Yaqub Eyyubov və Mqer Qriqoryan təxminən 4 dəqiqə ayaqüstü söhbət aparıblar. Daha sonra Baş nazir müavinləri MDB İqtisadiyyat Şurasının geniş tərkibdə iclasında iştirak ediblər.

(səh.2)

# "Sərhəd məsələsi kənar müdaxilə olmadan həll edilməlidir"

XİN "regionda sərhədlərin dəyişdirilməsi bizim qırmızı xəttimizdir" tezisi üzrə İrana cavab verdi



**Məlum olduğu kimi, Azərbaycan Respublikası özü işğala və təcavüzə məruz qalan ölkədir.**

Ermənistan tərəfi zordan istifadə edərək, Azərbaycan Respublikasının ərazilərinin iyirmi faizini, o cümlədən İran ilə sərhədimizin 132 km-ni işğal etmişdir. 30 il ərzində İran tərəfi sərhədlərin zordan istifadə edilərək dəyişdirilməsinə hər hansı bir münasibət bildirməmişdir.

Hazırda İran tərəfindən səsləndirilən bu kimi bəyanatların ünvanı bəlli deyil. Məlum olduğu kimi, Azərbaycan və Ermənistan liderlərinin Moskva və Brüsseldə keçirilən görüş formatları mövcuddur. Bu formatlarda danışıqlar davam edir. Bu formatlarda aparılan danışıqlar çərçivəsində hər iki tərəfin razılığı ilə dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası təsis edilmiş və onun tərkibi razılaşdırılmışdır.

(səh.2)

# "Əmininin ölümü xalq üçün bəhanə oldu"

Əhməd Obalı: "İnsanlar indiki rejimin getməsini istəyirlər, azadlıq istəyir, hüquqlarını tələb edirlər"





**İranda Məhsa Əmininin həbsi və daha sonra ölümündən sonra başlayan etirazlar davam edir.**

Bəzi beynəlxalq təşkilatlar aksiyalarda 31 adamın həyatını itirdiyini deyirlər. Ötən gün Kermanşah bölgəsində polislə qarşıdurmada da iki nəfər ölüb. Aksiyalarda əsasən qadınlar iştirak edirlər. Onlar etiraz olaraq yaylıqlarını çıxarır və saçlarını kəsirlər. İran İnqilab Keçikçiləri Qvardiyası açıqlama yayaraq iddia edib ki, prosesin arxasında həm ölkədə, həm də ölkə xaricindəki ünsürlər dayanır.

(səh.4)



## Daha 6 erməni hərbçinin meyiti qarşı tərəfə təhvil verilib

Meyitlərə baxış keçirilmiş və onların üzərində hər hansı zorakılıq əlamətləri aşkarlanmayıb

**Azərbaycan sentyabrın 23-də Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəsilə ərazidə tapılmış daha 6 erməni hərbçinin meyitini Ermənistan tərəfinə təhvil verib.**

Bu barədə "Şərq"ə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından bildirilib.

Meyitlərə Azərbaycan Hərbi Prokurorluğunun iştirakı ilə baxış keçirilib və onların üzərində hər hansı zorakılıq əlamətlərinin olması müəyyən edilməyib.

(səh.4)

## Koronavirusdan 2 nəfər ölüb

214 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 214 yeni yoluxma faktı qeydə alınıb, 229 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 2 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 820 513 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 809 210 nəfər müalicə olunaraq sağalıb, hazırda 1 401 aktiv xəstə var. Bu günə qədər 9 902 nəfər vəfat edib.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 2 728, bu günə qədər isə ümumilikdə 7 231 342 test icra olunub.

## Tovuzda bədbəxt hadisə

3 yaşlı uşağın və 17 yaşlı oğlanın üzərinə ağac aşaraq ölüb



**Tovuzda 3 yaşlı uşağın və 17 yaşlı oğlanın üzərinə ağac aşaraq ölüb.**

"Report"un Qərb bürosunun məlumatına görə, hadisə rayonun Əlibəyli kəndində qeydə alınıb.

Belə ki, küləkli hava şəraiti səbəbindən iri gövdəli ağac 2005-ci il təvəllüdlü Telman Allahverdiyevin və 2019-cu il təvəllüdlü F.Zeynalovun üzərinə aşıb. Nəticədə hər iki şəxs aldığı xəsarətdən hadisə yerində keçinib.



## Yollar da çəkiləcək

Kommunikasiya xətlərinin işlək vəziyyətə gətirilməsi qaçılmazdır

(səh.6)

## Ermənistana verilən vaxt daralır

Masaya gəlməsələr, Bakı tarixi xəritələr əsasında ərazi iddialarını genişləndirə bilər

(səh.3)





# Azərbaycan və Vyetnam prezidentləri arasında məktub mübadiləsi olub

## "İki ölkə arasında münasibətlər son otuz ildə yüksələn xətt üzrə inkişaf edib"

**Azərbaycan və Vyetnam prezidentləri iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 ili tamam olması münasibətilə məktub mübadiləsi həyata keçiriblər.**

Prezident İlham Əliyevin vyetnamlı Nquyen Suan Fukaya ünvanladığı məktubda deyilir:

"Hörmətli cənab Prezident,

Sentyabrın 23-də Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 ili tamam olur. Bu əlamətdar tarix münasibətilə Sizi və dost xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Azərbaycan ilə Vyetnam arasında dostluq və əməkdaşlıq münasibətlərinin əsası hələ ötən əsrdə xalqımızın Ümummilli Lideri Heydər Əliyev və Vyetnam xalqının böyük oğlu Ho Şi Min tərəfindən qoyulmuşdur. Məmnunluqla qeyd etmək istərdim ki, bu əlaqələr uğurla davam etdirilərək son otuz ildə yüksələn xətt üzrə inkişaf etmiş və hazırkı səviyyəyə çatmışdır.

Biz Azərbaycan-Vyetnam münasibətlərinə böyük əhəmiyyət veririk. Sağlam təməl üzərində qurulmuş dövlətlərarası münasibətlərimiz, siyasi, ticari, iqtisadi, mədəni və digər sahələrdə səmərəli əməkdaşlığımız bizi sevindirir.

Eyni zamanda, beynəlxalq təşkilatlar, xüsusilə də BMT və Qoşulmama Hərəkatı çərçivəsində qarşılıqlı etimad və dəstəyə əsaslanan konstruktiv əməkdaşlığımızı xüsusi qeyd etmək istərdim. Vyetnamın beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə uyğun olaraq ölkəmizin ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına verdiyi dəstəyinə və ədalətli mövqeyinə görə minnətdarıq.

Bu gün iqtisadi-ticari, enerji, nəqliyyat, kənd təsərrüfatı, sərmayə qoyuluşu və digər sahələrdə tərəfdaşlığımızın əhatə dairəsinin genişlənməsi üçün yaxşı imkanlar vardır. İnanıram ki, dost xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan ilə Vyetnam arasında əlaqələrin möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli əməkdaşlığımızın daha da genişləndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Vyetnam xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram".

**Vyetnam Prezidenti Nquyen Suan Fukun Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı məktubda bildirilir:**

*"Hörmətli cənab Prezident.*

Vyetnam ilə Azərbaycan arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə Vyetnam dövləti və xalqı adından Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram.

Son 30 ildə ölkələrimiz arasında ənənəvi dostluq münasibətlərinin inkişaf etməsi və möhkəmlənməsi məmnunluq doğurur. Birgə səylərimizlə Vyetnam və Azərbaycan arasında ölkələrimizin inkişafına fəal şəkildə töhfə verən və ikitərəfli əlaqələr üçün möhkəm təməl yaradan dostluq və hərtərəfli əməkdaşlıq münasibətləri qurulmuşdur.

Mən qəti şəkildə inanıram ki, hər iki ölkənin liderlərinin iradəsi və əzmkarlığı, nazirliklərin və digər qurumların birgə səyləri, eləcə də xalqlarımız arasında əlaqələr sayəsində Vyetnam-Azərbaycan əməkdaşlığı dövlətlərimizin mənafeyi, həmçinin dünyada sülh və inkişaf naminə bundan sonra daha da möhkəmlənəcək və genişlənəcəkdir.

Cənab Prezident, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə uğurlar arzu edirəm".

# "Sərhəd məsələsi kənar müdaxilə olmadan həll edilməlidir"

## XİN "regionda sərhədlərin dəyişdirilməsi bizim qırmızı xəttimizdir" tezisi üzrə İrana cavab verdi

**Məlum olduğu kimi, Azərbaycan Respublikası özü işğala və təcavüzə məruz qalan ölkədir. Ermənistan tərəfi zordan istifadə edərək, Azərbaycan Respublikasının ərazilərinin iyirmi faizini, o cümlədən İran ilə sərhədimizin 132 km-ni işğal etmişdir. 30 il ərzində İran tərəfi sərhədlərin zordan istifadə edilərək dəyişdirilməsinə hər hansı bir münasibət bildirməmişdir.**




Hazırda İran tərəfindən səsləndirilən bu kimi bəyanatların ünvanı bəlli deyil. Məlum olduğu kimi, Azərbaycan və Ermənistan liderlərinin Moskva və Brüsseldə keçirilən görüş formatları mövcuddur. Bu formatlarda danışıqlar davam edir. Bu formatlarda aparılan danışıqlar çərçivəsində hər iki tərəfin razılığı ilə dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiya təsis edilmiş və onun tərkibi razılaşdırılmışdır. Hesab edirik ki, Ermənistan-Azərbaycan münasibətləri, o cümlədən iki dövlətin sərhəd məsələsi kənar müdaxilə olmadan həll edilməlidir.

"Şərq" xəbər verir ki, Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva yerli KİV-in "Son dövrlərdə İranın yüksək çinli mülki və hərbi şəxsləri tərəfindən "regionda sərhədlərin dəyişdirilməsi bizim qırmızı xəttimizdir" tezisi üzrə fikirlər səsləndirilir, reallıqdan uzaq iddialar irəli sürülür. Buna münasibətinizi öyrənmək istərdik" sualını cavablandırarakən belə deyib.

"Bu gün İranın Sərhəd Mühafizəsi Orqanları tərəfindən sərhədyanı Xudafərin rayonu ərazisində terrorçu qrupun müəyyən edilərək həbs olunmasına dair bəyanat yayılmışdır. Xudafərin rayonunun Azərbaycan ilə həmsərhəd olduğunu nəzərə alaraq, bununla bağlı hər hansı bir şərhiniz varmı?" sualına isə L.Abdullayeva belə cavab verib: "Azərbaycan-İran dövlət sərhədi dostluq və əməkdaşlıq sərhədi kimi tanınır. Azərbaycan və İran sərhədçiləri arasında qarşılıqlı faydalı əməkdaşlıq təcrübəsi nümunəvidir. Ara-sıra baş verən sərhəd pozuntusu və qaçaqmalçılıq halları yerlərdəki komandirlər arasında birbaşa təmaslar çərçivəsində tənzimlənir. İran Sərhəd Mühafizəsi Orqanlarının bugünkü bəyanatının Azərbaycan-İran dövlət sərhədinə heç bir aidiyyəti yoxdur".

"İran rəsmilərinin açıqlamalarından məlum olur ki, İran tərəfi Zəngəzur dəhlizini İran-Ermənistan sərhədinin kəsilməsi kimi qəbul edirlər. Bu məsələ İran tərəfi ilə təmaslarda müzakirə edilibmi?" sualına isə "44 günlük Vətən müharibəsi zamanı işğal altında olan Azərbaycan-İran sərhədinin azad edilməsi münasibətilə ilə Müzəffər Ali Baş Komandan Azərbaycan və İran xalqlarını təbrik etmişdir. Azərbaycan tərəfi İran ilə sərhədlərini ticarətin və əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün fürsət kimi dəyərləndirir. Ermənistanın işğalı nəticəsində yalnız Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə deyil, həmçinin İran ilə də dəmiryolu əlaqəsi kəsilmişdir. 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata uyğun olaraq, regionda kommunikasiyaların açılması və bərpası üzrə Komissiya çərçivəsində müzakirələr davam edir. Azərbaycan tərəfi paralel olaraq, İran ilə Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikasının birləşdirilməsi üçün İran ərazisindən keçməklə infrastrukturun yaradılmasına dair müqavilə imzalamışdır. Əldə olunmuş razılığa əsasən, 22 sentyabr 2022-ci ildə Zəngilan rayonu ərazisində hər iki ölkə rəsmilərinin iştirakı ilə avtomobil körpüsünün təməlqoyma mərasimi baş tutmuşdur. Zəngəzur dəhlizinin İranın Ermənistan ilə sərhədini kəsməsi kimi qələmə verilməsi kökündən yanlış olmaqla yanaşı, reallıqdan uzaqdır. Zəngəzur dəhlizi, əksinə, ölkələrimiz arasında əlaqələri daha da dərinləşdirən və regional əməkdaşlıq üçün yeni perspektivlər vəd edən önəmli bir layihədir", - deyə XİN rəsmisi cavab verib.

# Yaqub Eyyubov Paşinyanın müavini ilə sərhəddəki vəziyyəti müzakirə edib



**Azərbaycan Baş nazirinin müavini Yaqub Eyyubovla Ermənistan Baş nazirinin müavini Mqer Qriqoryan ayaqüstü söhbət ediblər.**

Yaqub Eyyubov və Mqer Qriqoryanın söhbəti Moskvada MDB İqtisadiyyat Şurasının iclası çərçivəsində baş tutub.

MDB İqtisadiyyat Şurasının məhdud formatda keçirilən iclasından sonra fasilə zamanı Yaqub Eyyubov və Mqer Qriqoryan təxminən 4 dəqiqə ayaqüstü söhbət aparıblar. Daha sonra Baş nazir müavinləri MDB İqtisadiyyat Şurasının geniş tərkibdə iclasında iştirak ediblər.

Ermənistan Baş nazirinin müavini Mqer Qriqoryan Azərbaycan Baş nazirinin müavini Yaqub Eyyubovla Moskvada MDB İqtisadi Şurasının 95-ci iclası çərçivəsində qısa danışıqlar aparıblar.

APA xəbər verir ki, bu barədə Mqer Qriqoryanın ofisindən "Sputnik Armenia"ya bildirilib.

"Bir neçə dəqiqə ayaqüstə davam edən söhbət qeyri-rəsmi formatda və Ermənistan-Azərbaycan sərhədində baş verən son hərbi toqquşmalar mövzusunda aparılıb", - Qriqoryanın ofisindən deyilib.

# "Cəzasızlıq növbəti təxribatlara yol açır"

## Ceyhun Bayramov: "Səfirliklərimizə hücum edənlərin tapılıb cəzalandırılmasını tələb edirik"

**"Diplomatik nümayəndəliklərimizə hücum tamamilə qəbuledilməzdir".**



Bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov AzTV-yə müsahibəsində deyib.

Nazir bildirib ki, bu, beynəlxalq münasibətlərin təməl prinsiplərinin tapdalanmasıdır: "Çünki diplomatların və diplomatik missiyaların toxunulmazığı beynəlxalq münasibətlərin təməlidir. Diplomatlara hücum mənəvi və hüquqi normalara sığmayan hərəkətdir. Digər tədbirlərlə yanaşı, biz həmin ölkələrə qəti etirazımızı bildirmişik. Çünki Vyana Konvensiyasını qəbul edən hər bir ölkə bu sənədin müddəalarının yerinə yetirilməsinə görə məsuliyyət daşıyır".

C.Bayramov söyləyib ki, Azərbaycanın diplomatik nümayəndəliklərinə hücum edən bütün cinayətkarlar tapılmalı və cinayət məsuliyyətinə cəlb olunmalıdır: "Çünki cəzasızlıq növbəti təxribatlara yol açır".

*Xatırladaq ki, son günlər bir qrup erməni radikalları Azərbaycanın Fransa, Livan və Gürcüstandakı səfirliklərinə basqın ediblər.*

# Tehranın yuxuları ərşə çəkilib

## Çünki bilirlər ki, türk dövlətlərini birləşdirən ən önəmli vasitə Zəngəzur dəhlizidir

**İran növbəti dəfə Azərbaycanı təhdid edib. Bu dəfə ölkəmizi hədələyən İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general-mayor Məhəmməd Baqeri olub. Baqeri paradda çıxışı zamanı Azərbaycana və Ermənistana problemi dialoq yolu ilə həll etməyi "məsləhət görüb".**



Əlavə edib ki, İran "sərhədin güc və müharibə yolu ilə dəyişdirilməsinə dözməyəcək. Tehran münaqişələr və müharibələr törətmir, lakin onlar başlayanda da susmur. Bizə qarşı təhlükə hiss etsək, sionist rejimin ünsürləri və onların havadarlarını cəzalandıracağıq". Sentyabrın 21-də Azərbaycan-Ermənistan sərhədini müzakirə edən İran parlamentinin Milli Təhlükəsizlik Komissiyası da öz bəyanatında "sərhədlərin dəyişilməzliyinin yolverilməz olduğunu" bildirmişdi. Tehran hökuməti sərhəddə baş verənləri "beynəlxalq sionizm" və NATO fitnələrinin nəticəsi kimi təqdim edir. Ekspertlərin fikrincə, İran Azərbaycan və Türkiyəyə üstüörtülü mesajlar verir.

**İranın təhdidi ilə bağlı "Şərq"ə danışan AĞ Partiya sədrinin müavini Əhəd Məmmədli deyib ki, Tehranın əsas narahatlığı Türkiyənin Orta Asiyanın türk respublikaları ilə sıx əlaqələr qurması, türk dünyasının güclənməsidir. Analitik bildirib ki, türk dövlətlərini birləşdirən ən önəmli vasitə Zəngəzur dəhlizidir:**

"İran bunu qətiyyən istəmir. "Hizbullah"ın əvvəlki başçısı 1990-cı illərin əvvəlində bir məsələni gündəmə gətirmişdi. İranda olarkən Tehran rəsmilərinə sual edib ki, niyə müsəlman Azərbaycanı yox, xristian Ermənistanı dəstəkləyirsiz? İran hökuməti də ona demişdi ki, Azərbaycan və Türkiyənin güclənməsi onlara sərf etmir. Bu, tarixi İran-Turan qarşıdurmasıdır. İranın anti-Azərbaycan ritorikası məhz bu düşmənçiliyə söykənir. Tehranın qarın ağrısı budur. Türkiyənin Azərbaycanda, Cənubi Qafqazda güclənməsi İranın yuxusunu qaçırır. Sərhədlər isə bəhanədir. İran bu dəfə sərhəd məsələsini gündəmə gətirərək etiraz edir, sabah başqa mövzunu qabardacaq. Həqiqətən sərhəd məsələsi İran üçün "qırmızı xətt" idisə, niyə 30 ildə Ermənistanın Azərbaycan torpaqlarını işğalda saxlamasına etirazını bildirməyib? Azərbaycan hədə-qorxu gəlinəcək ölkə deyil. Biz meydanda tək deyilik, yanımızda Türkiyə kimi güclü qardaşımız var".

**İsmayıl Qocayev**

# Yolumuza davam

## Erməni xisləti hər zaman gücün qarşısında əyilir

**Azərbaycan Prezidenti İlham Əliyev Laçın şəhərində Azərbaycan bayrağını ucaldarkən çıxış edib.**



"Tarixi torpaqların alınmasından sonra 3-5 erməni də vəziyyəti anlayacaq"

Azərbaycan lideri bəyan edib: "Yenə də görürük ki, Ermənistan sülh istəmir, yenə də revanşist fikirlərlə yaşayır. İkinci Qarabağ müharibəsi Ermənistan ordusunun tamamilə darmadağın edilməsi ilə nəticələndi və müzəffər Azərbaycan Ordusu öz doğma torpaqlarını azad etdi. Biz hesab edirdik ki, nəhayət bu, onlara dərs olacaq.

Çünki Ermənistan ordusu tamamilə dağılmış vəziyyətdədir. Müharibə dövründə 10 min fərarisi olan ölkə müharibə aparmaq iqtidarında deyil.

Biz müharibədən dərhal sonra onlara sülh təklif etdik. Ancaq yenə də görürük ki, Ermənistan sülh istəmir, yenə də revanşist fikirlərlə yaşayır. Biz təklif etdik ki, delimitasiya prosesinə start verək. Bunu təxminən bir ildən çox müddət ərzində uzatdı. İndi isə bu proses başlasa da, sırf formal xarakter daşıyır, mahiyyət üzrə heç bir danışıqlar aparılmır, xəritələr üzrə heç bir müzakirə aparılmır".

**Sülh olsa belə, ermənilərin xülyalarından əl çəkməyəcəyini deyən AĞ Partiya sədri Tural Abbaslı "Şərq"ə bildirib ki, Ermənistan kimi qonşun varsa ayıq-sayıq olmalısan:** "Biz sərhədlərin demarkasiya və delimitasiyasını etsək belə, rəsmi İrəvan təxribatlara davam edəcək. Ona görə də Azərbaycan Ordusu hər an hazır olmalı və bütün təxribat cəhdlərinə cavab verməlidir.

Belə cavablardan və tarixi torpaqların alınmasından sonra yerdə qalan 3-5 erməni hər şeyi başa düşəcək.

Onlar anlayacaq ki, burda artıq söhbət "böyük Ermənistandan" yox, onların var olub-olmamasından gedir. Bundan sonra isə sakitləşəcəklər.

Çünki erməni xisləti hər zaman gücün qarşısında əyilir. Nə zaman ki, güclü olacaqsan, sənlə hesablaşacaqlar, nə vaxt ki, zəifləyəcəksən, üzərinə gələcəklər. Bu baxımdan da "köpəklə dostluq elə, kötəyi yerə qoyma" prinsipinə əsaslanmalıyıq".

**Nihat Müzəffər**

# Ermənistana verilən vaxt daralır

## Masaya gəlməsələr, Bakı tarixi xəritələr əsasında ərazi iddialarını genişləndirə bilər



İsmayıl Qocayev

**Azərbaycan Prezidenti İlham Əliyevin Laçın şəhərinə səfəri baş tutdu. Səfər çərçivəsində Prezident Laçın şəhərində Azərbaycan bayrağını ucaltdı. Daha sonra çıxış edən dövlət başçısı bir sıra mühüm məqamlara toxundu.**

Prezidentin gündəliyində bir çox mövzu olsa da, ən diqqət çəkəni Ermənistan silahlı qüvvələrinin iki ölkənin dövlət sərhədi istiqamətində törətdiyi genişmiqyaslı təxribatlar və Azərbaycan Ordusunun sərhəd təxribatlarına cavab olaraq həyata keçirdiyi hərbi əməliyyatlar barəsində danışması oldu. Ölkə rəhbəri bildirdi ki, əgər Ermənistan bizi ittiham etmək istəyirsə ki, "onların ərazisinə girmişik", bunun heç bir əsası yoxdur: "Birincisi, əgər sərhəd onların dediyi yerdə idisə sərhədi quraydılar, sərhəd xətlərini inşa edəydilər, kommunikasiyaları, mühəndis işlərini quraydılar. Onlar hesab edirdilər ki, bütün Qarabağ və Zəngəzur onlara qalacaq. Məhz buna görə Azərbaycan-Ermənistan sərhədində heç bir iş görməmişdilər".

**Siyasi şərhçi Turan Rzayev "Şərq"ə bildirib ki, dövlət başçısının sözlərində tarixi və siyasi həqiqət var. Analitik qeyd edib ki, Ermənistan 27 il ərzində qondarma "Artsax"ın öz müqəddəratını təyin etməsi ilə bağlı yalan məlumatlar yaysa da, özü heç vaxt bu qurumu "dövlət" kimi tanımayıb. Çünki Ermənistanın məqsədi regionda ikinci "erməni dövləti" yaratmaq deyil, Qarabağın işğalını bu yolla legitimləşdirmək idi:** "Məhz buna görə Prezidentin dediyi kimi "əgər sərhəd onların dediyi yerdə idisə sərhədi quraydılar, sərhəd xətlərini inşa edəydilər, kommunikasiyaları, mühəndis işlərini quraydılar". Qondarma qurumun "bayrağına" da diqqət etdikdə Ermənistandan qopma, ayrılma təsviri var. Əslində bu özü rəsmi İrəvanın işğalçılıq siyasətinin bir göstəricisidir. Siyasi reallığa gəldikdə isə 44 günlük müharibə sonrası rəsmi Bakı iki ölkə arasında sərhədlərin delimitasiya və demarkasiyası ilə bağlı işlərin başlanmasını istədi. Mayın 23-də Brüsseldə Aİ Şurasının sədri Şarl Mişel ilə üçtərəfli görüşdən bir gün sonra Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyan sərhəd delimitasiyası üzrə komissiyaların yaradıldığı barədə sərəncam imzalayıblar. Lakin həmin komissiya bu günə qədər istənilən səviyyədə iş görə bilmədi. Bunun səbəbi də birbaşa Ermənistandır. Rəsmi İrəvan vaxtaşırı etdiyi təxribatlar və diversiya hücumları nəticəsində komissiyanın işinə açıq şəkildə mane olur".

Ekspert bildirib ki, nəticə etibarilə bu gün Ermənistan ilə Azərbaycan arasında nə yekun sülh müqaviləsi, nə də sərhədlərin demarkasiya və delimitasiyasına dair bir sənəd yoxdur: "İki ölkə arasında dövlət sərhədləri qeyri-müəyyən qalırsa tərəflərdən heç biri digərini sərhəd pozmaqda ittiham edə bilməz. Xüsusilə də Ermənistan. Yeri gəlmişkən, Prezident də bu məsələ ilə bağlı bir daha qeyd etdi ki, "Biz Ermənistanla sülh müqaviləsini imzalamaq üçün 5 prinsip təklif etmişik. Sözdə onları qəbul ediblər, amma biz bunu əməldə görmürük. Yenə də vaxt uzatma taktikası". Dövlət başçısı qeyd etdi ki, Azərbaycan Azərbaycan-Ermənistan komissiyalarının işinə məsuliyyətlə yanaşır: "Bütün xəritələri toplamışıq, o cümlədən XIX əsrə, XX əsrə, ondan əvvəlki dövrə aid olan xəritələr bizdədir və o xəritələr açıq-aydın göstərir, kim hansı torpaqda yerləşibdir. Ona görə delimitasiya aparılmadan bizi heç kim ittiham edə bilməz". Prezident açıqca qeyd edir ki, biz sərhədlərin delimitasiya və demarkasiyasına dair işlərin yenidən başlanmasına razıyıq. Yəni bizim əlimizdə bir yox, bir neçə tarixi xəritə var. Ermənistan konstruktiv olmayacağı təqdirdə rəsmi Bakı tarixi xəritələr əsasında ərazi iddialarını genişləndirə bilər. Məsələn, Prezidentin qeyd etdiyi XX əsrə xəritələrdən birində Cənubi Qafqaz ölkələrinin dövlət sərhədləri açıq-aşkar göstərilib. Hətta həmin xəritədə Göyçə gölü iki ölkə arasında tam şəkildə bölünüb.

Prezident bununla bir daha Ermənistandan konstruktiv danışıqlara qayıtmasını, əks təqdirdə əməliyyatların davam edəcəyi, hətta Ermənistanın təsəvvür edə bilməyəcəyi həddə çatacağı mesajını verir".



**Nazirlər Kabinetində 2023-cü ilin dövlət büdcəsi layihəsinin müzakirəsi keçirilib. İclasda qeyd olunan məsələlərdən biri də əhalinin, şəhid ailələrinin, qazilərin sosial müdafiəsi və sosial təminatının gücləndirilməsinin, aztəminatlı əhalinin sosial rifahının yaxşılaşdırılması ilə bağlı tədbirlərin genişləndirilməsi olub.**

# Dünya iqtisadiyyatında proqnozlar ürəkaçan deyil

## Gələn ildə də inflyasiyaya qarşı mübarizə prioritet olaraq qalacaq

Qeyd olunub ki, inflyasiya təzyiqi nəzərə alınmaqla həssas əhali qruplarına sosial dəstək tədbirlərinin həyata keçirilməsi üçün 2023-cü il üzrə dövlət büdcəsinin sosialyönlü xərcləri bu illə müqayisədə 9,2 faiz çox nəzərdə tutulub. Konkret rəqəmlərə gəldikdə isə 2023-cü ilin dövlət büdcəsində birbaşa sosial müdafiə və sosial təminat xərcləri 3 milyard 728 milyon manatdan 4 milyard 411 milyon manatadək artırılır.

**Millət vəkili Vüqar Bayramov deyib ki, gələn il büdcənin 23.7 faizi əməyin ödənilməsinə yönəldiləcək, bu, həmin istiqamətə 6 milyard 495 milyon manat vəsaitin ayrılacağı deməkdir. Deputatın sözlərinə görə, bu, ötənilki faktiki göstəriciyə nəzərən 30 faiz artımdır**: "2023-cü il üzrə dövlət büdcəsinin xərclərinin iqtisadi təsnifatında sosial ödənişlərə 4 milyard 61 milyon manat nəzərdə tutulub. Bu da 2022-ci ilin proqnozundan 5.9 faiz çoxdur. Bütövlükdə, 2023-cü ildə sosial istiqamətlər üzrə artımlar nəzərdə tutulub. Bununla yanaşı, gələn ildə də inflyasiyaya qarşı mübarizə prioritet olaraq qalacaq. Dünya iqtisadiyyatında proqnozlar heç də ürəkaçan olmadığı üçün idxal inflyasiyası gələn ildə də istehlak bazarımıza təsirsiz ötüşməyəcək. Bu baxımdan sosial müdafiə tədbirləri fiskal siyasətdə əsas istiqamət olaraq qalmaqdadır".

İsmayıl Qocayev

# Putin hələ gözləmə mövqeyindədir

## İrəvanda baş qaldıran anti-Rusiya rüzgarı Paşinyanın devrilməsi ilə nəticələnə bilər



**İrəvanda Rusiya səfirliyi qarşısında etiraz aksiyası keçirilib. Aksiya "Əlvida, çirkli Rusiya" şüarı altında baş tutub. Əllərində ABŞ bayraqları, həmçinin "KTMT xain", "Putin xain" yazısı olan plakatlar tutan aksiya iştirakçıları antirusiya şüarları səsləndiriblər.**

Aksiyada iştirak edən erməni deputat Vaqe Qasparyan bildirib ki, Rusiya imperiyasının 300 illik tarixi sona yaxınlaşır: "Rusiya imperiyası Cənubi Qafqazda yaşayan bütün xalqlara qarşı həmişə müstəmləkə siyasəti aparıb. Biz ermənilər Rusiyanın imperiya siyasətinin nə olduğunu yaxşı bilirik. Ermənistan bir daha Rusiyanın boyunduruğu altında qalmayacaq. Əlvida, çirkli Rusiya!".

**Ermənistanda Rusiya əleyhinə aksiyaları "Şərq"ə təhlil edən politoloq Azər Qasımov deyib ki, Ermənistan cəmiyyətində mövcud olan qrupların müxtəlif dairələrə və ölkələrə bağlı olması faktı məlumdur.** Analitik vurğulayıb ki, bir qrupun Qərbyönlü, digərlərinin isə Rusiya yönlü olması erməni xislətinin açıq nümunəsidir: "Hər zaman kimlərinsə himayəsində olmaq erməni toplumunun adət elədiyi haldır. Ermənilər Rusiyadan onları qorumaq adı altında gözləyirdilər ki, rus ordusu onların yerinə Azərbaycanla döyüşəcək. Bu, belə olmadı. Ona görə indi Rusiya pis olub. Rusiyanın hesabına yoxdan dövlət quran ermənilər indi də Qərbə, Avropaya ümid bəsləyirlər. Ermənistanın çoxdan Qərbə üz tutmaq fikri olduğu bəllidir. Rusiya bunu heç vaxt ciddi qəbul etməyib. Rusiya yaxşı bilir ki, ermənilər istəsələr belə, ondan ayrıla bilməzlər. Sadəcə, Rusiyaya qarşı olmaq görüntüsü yaratmaqla ondan daha çox istifadə etmək istəyirlər. İndi Rusiyanın durumu çətin olduğu üçün başı özünə qarışıb. Azərbaycan da ağıllı siyasətlə Rusiyanı neytrallaşdıra bilib. Ona görə də Ermənistanın Rusiyadan ayrılmaq istədiyi görüntüsü yaradırlar. Əslində Amerika da yaxşı bilir ki, Ermənistanın Rusiyadan qopmaq kimi bir istəyi yoxdur. Ona görədir ki, N.Pelosi Ermənistana gəlişində qeyd etdi ki, Ermənistan fikrini dəqiqləşdirib, Amerikanın yanında olmaq istəsə, biz onlara kömək edərik".

*A.Qasımov diqqətə çatdırıb ki, Kreml Ermənistanın bu hərəkətlərinə həmişə təmkinlə yanaşıb:* "Kreml Ermənistanın bilə-bilə özünü daha da problemlərin içinə atacağını hesab etmir. Ermənistan ola biləcək Rusiya-Qərb qarşıdurmasında arada yox olar. Kremlin son ana kimi gözləyib, lazım gəlsə, Qərbyönlü siyasət yürütməyi qətiləşdirmiş bir hakimiyyəti devirmək üçün bütün imkanları var. Beynəlxalq qanunların heç bir işə yaramadığı bir dövrdə Rusiyanın Ermənistanı Qərbdən döndərməyin adi bir şey olduğunu Rusiyanın Ermənistana qaza görə borcunu ödəməyi tələb etməklə eşitdirdiyini təzəlikcə gördük. Bu hələ başlanğıcdır".

İsmayıl Qocayev

# Bahalaşmanın qarşısının alınması vergidən asılı deyil

## "İstəyirsən, ucdantutma bütün məhsullara ƏDV-ni ləğv et, yenə də qiymət dəyişməyəcək"



"Bu gün rahat bir şəkildə, heç bir ziyana uğramadan 1.20 qəpiyə sata biləcəkləri pomidorun qiymətinin üzərinə əlavə 30-40 qəpik də əlavə edirlər ki, kimsə əlavə gəlir əldə etsin. Məsələ bu dərəcədə anlaşılandır"

Məlahət Rzayeva

**Mövsümi fəaliyyət göstərən subyektlərlə bağlı vergi güzəştləri - mövsümi vergilər tətbiq edilə bilər. Bu barədə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin dünən keçirilən iclasında bildirilib.**

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəis müavini Samirə Musayeva qeyd edib ki, mövsümi fəaliyyət göstərən subyektlərlə bağlı güzəştlərin edilməsi məsələsinə baxılır. S.Musayeva bildirib ki, bununla bağlı məsələ sosial-iqtisadi inkişaf strategiyası çərçivəsində də baxılır: "Bu məsələdə sahibkarların da təklifi nəzərə alınır, xüsusilə mövsümi vergilərin tətbiqi ilə bağlı sahibkarların təkliflərinə baxılacaq".

"Mövsümi fəaliyyət göstərən subyektlər" deyildiyində ağla ilk gələn fermer təsərrüfatları, meyvə-tərəvəz yetişdirənlər, çimərlik mövsümündə dəniz kənarında fəaliyyət göstərən obyektlər olur. Bir az da dərinə getsək, məsələn, məktəb bazarlığı dövrünü, ənənəvi bayramlarda yarmarkalarda çalışanları, hətta məlum aylarda toya həsrət qalan şadlıq saraylarını da əlavə edə bilərik. Bu sadaladıqlarımız obyektlərin sahibləri və orada çalışanlar da özlərini "mövsümi işçi" hesab edə bilər. Hərçənd mövsümdənkənar vaxtlarda şadlıq sarayları, dəniz kənarında yerləşən obyektlər də qaz vurub qazan doldurur, az qazanclı dövrlərinin hesabını da "sezon" qiymətlərinə "kəsir".

**İqtisadçı Fuad İbrahimov "Şərq"ə açıqlamasında qeyd etdi ki, mövsümi fəaliyyət göstərən subyektlərə vergi güzəştlərindən söhbət gedirsə, əlbəttə, bu, ilk növbədə kənd təsərrüfatı sektoruna şamil edilməlidir:**

- Əgər mövsümi fəaliyyətdən danışırıqsa, ilk növbədə kənd təsərrüfatında çalışanlar, fermerlərə bu güzəştlər şamil olunmalıdır. Əkinçilik, bostançılıqla məşğul olanlar, meyvə-tərəvəz yetişdirənlər ilin müəyyən fasilələrində aktiv çalışır, məhsullarını bazara çıxara bilir. Ona görə də bu sektorda vergi güzəştləri mütləq olmalıdır. Qaldı, digər sahələr, mövsümi fəaliyyət göstərən iaşə obyektləri onların də mənfəət gəlirləri düzgün hesablanmalıdır. Bizdə əsas problem ölçü vahidinin düzgün hesablanmamasıdır. Baxın, bir millət vəkili deyir ki, ərzaq məhsullarının üzərindən əlavə dəyər vergisi götürülsün. Sual verirəm; məgər belə olarsa, ərzaq məhsullarındakı qiymət artımının qarşısı alınacaq? Çörəyə ƏDV tətbiq edilmir, yumurtaya, toyuq ətinə də ƏDV yoxdur. Bəs niyə qiymət qalxır? Digər məhsullar da belə olacaq. İstəyirsən, ucdantutma, bütün məhsullara ƏDV-ni ləğv et, yenə də vəziyyət dəyişməyəcək, qiymət düşməyəcək. Ləğv edilmiş vergiyə görə əldə ediləcək mənfəət fərqi yenə də kimlərinsə cibinə gedəcək, sadə vətəndaş bundan xeyir görməyəcək. Çünki süni, subyektiv bahalaşmanın qarşısının alınması vergidən asılı deyil. Bunun açarı azad, rəqabətyönümlü bazarın mövcudluğudur. Bu gün, tutaq ki, mən Fuad İbrahimova ölkəyə toyuq məhsullarının gətirilməsinə icazə verilsin, qarşımda heç bir süni əngəl olmasın, ertəsi gün bazarda, marketdə toyuğun qiyməti düşəcək. Bu, bütün mal və məhsullara aiddir. Mən sadəcə, primitiv bir misal çəkdim. Biz dəfələrlə monitorinq aparmışıq. Məsələn, pomidorun qiyməti niyə 1.80-2 manatdır? Məhsulun maya dəyəri, logistika, gömrük xərcləri, marketdə, piştaxtada əlavə edilən qiymət, mənfəət ölçüsü, hamısını hesablamışıq, yenə də 2 manata gəlib çatmır. 30-40 faiz qalıq qalır. Deməli, burada konkret kimlərinsə mənfəəti, cibə gedəcək qiymət gözlənilir. Bu gün rahat bir şəkildə, heç bir ziyana uğramadan 1.20 qəpiyə sata biləcəkləri pomidorun qiymətinin üzərinə əlavə 30-40 qəpik də əlavə edirlər ki, kimsə əlavə gəlir əldə etsin. Məsələ bu dərəcədə anlaşılandır. Ona görə də bu gün çörəkdən ƏDV-ni götürdük, sabah ətdən, balıqdan, toyuqdan, bunların heç bir faydası olmayacaq. Qiymətlər yenə qalxacaq, vətəndaş əziyyət çəkəcək, evinə normal bazarlıq edə bilməyəcək.

# Bakı metrosunda sıxlıq

## Sərnişinlər stansiyaya daxil olmaqda çətinlik çəkirlər



**Bakı metrosunda yaranan sıxlıq sərnişinlərin stansiyalara girişinə çətinlik yaradıb. Oxu.Az xəbər verir ki, problemi əks etdirən görüntülər sosial şəbəkələrdə yayılıb.**

Vətəndaşlar iddia edirlər ki, foto "Elmlər Akademiyası" stansiyasında lentə alınıb. Amma bənzər vəziyyət metronun "28 May" stansiyasında da müşahidə edilir.

Vəziyyətlə bağlı "Bakı Metropoliteni" QSC-nin mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov Oxu.Az-a açıqlamasında bildirib ki, stansiyalara girişin məhdudlaşdırılması ilə bağlı yayılan məlumatlar əsassızdır:

"Mövcud vəziyyətdə sərnişin axınının çoxluğu sıxlıq yaradır. Sıxlığı aradan qaldırmaq üçün görülən tədbirlər sərnişin təhlükəsizliyi tələblərinə əməl olunmaqla həyata keçirilir".





# "Əmininin ölümü xalq üçün bəhanə oldu"

## Əhməd Obalı: "İnsanlar indiki rejimin getməsini istəyirlər, azadlıq istəyir, hüquqlarını tələb edirlər"

İsmayıl Qocayev

**İranda Məhsə Əmininin həbsi və daha sonra ölümündən sonra başlayan etirazlar davam edir. Bəzi beynəlxalq təşkilatlar aksiyalarda 31 adamın həyatını itirdiyini deyirlər. Ötən gün Kermanşah bölgəsində polislə qarşıdurmada da iki nəfər ölüb. Aksiyalarda əsasən qadınlar iştirak edirlər. Onlar etiraz olaraq yaylıqlarını çıxarır və saçlarını kəsirlər. İran İnqilab Keçikçiləri Qvardiyası açıqlama yayaraq iddia edib ki, prosesin arxasında həm ölkədə, həm də ölkə xaricindəki ünsürlər dayanır. Ölkənin müxtəlif şəhərlərində hüquq-mühafizə orqanları gücləndirilmiş iş rejiminə keçiblər.**

*Güney Azərbaycan Televiziyasının qurucusu və rəhbəri Əhməd Obalı deyib ki, İranda baş verən son etirazlar əvvəlkilərdən bir neçə istiqamətdə fərqlənir. Hazırda ABŞ-da yaşayan soydaşımız vurğulayıb ki, gənc xanımın əxlaq polisinin zorakılığına məruz qalaraq ölməsi etirazlar üçün bəhanə olub:* "Bu, fürsət oldu ki, xalq etirazlara başlasın. İndiki etiraz aksiyalarının digərlərindən əsas fərqi genişmiqyaslı və uzunmüddətli olmasıdır. Ötən illərdə "yaşılların" bir hərəkatı olmuşdu. O zaman da böyük kütlə etiraza qalxmışdı, amma çox məhdud bölgədə baş vermişdi. Həm də həmin etirazlar hökumət arasında islahatçılar mühafizəkarlar arasında mübarizənin nəticəsi idi. Ona görə də xalqın əhəmiyyətli hissəsi aksiyalara qoşulmurdu, millət bunu öz məsələsi kimi görmürdü. Ancaq indiki etirazları xalq öz məsələsi sayır. Yəni gənc xanımın öldürülməsi bəhanədir. Artıq aksiyalarda səsləndirilən şüarlar tamam başqadır. Şüarlar rejimin əleyhinədir, insanlar indiki rejimin getməsini istəyirlər, azadlıq istəyir, hüquqlarını tələb edirlər. Azərbaycanlılar əsasən "Azadlıq, ədalət, milli hökumət" şüarını səsləndirirlər. Həmçinin, "Azərbaycan milləti, çəkə bilməz bu zilləti", "Azərbaycan oyaqdı, qadınlara dayaqdı". Bu tipli milli şüarlar səsləndirilir. Ərəblər və kürdlər də öz hüquqlarını tələb edirlər. Eyni zamanda farslarla birlikdə İranda ümumi bir şüar səsləndirilir və tələb olunur ki, rejim getsin. Hətta açıq-aydın "Xameneiyə ölüm" şüarları da dilə gətirilir".

**Ə.Obalı bildirib ki, İranın fars bölgələrindən tutmuş şimalda Rəştə qədər, o cümlədən Məşhəddə, Qumda, Bəlucustanda yaşayan xalqlar etiraza qalxıblar:** "Giləklər, ərəblər, kürdlər, 30 milyondan çox azərbaycanlılar etiraz edirlər. İndiyə kimi belə genişmiqyaslı aksiyalar olmayıb, əvvəlki etirazlar ən çox iki gün davam edib. Budəfəki aksiyalar 6-cı gündür ki, davam edir. Sosial şəbəkələrdə də ciddi aktivlik var. Dünyanın diqqəti, nəzəri İranın üzərindədir. Proseslərin necə olacağı, nə ilə nəticələnəcəyi qarşıdan gələn üç-dörd gün ərzində bəlli olacaq. Ya rejim dağılmalıdır, yaxud da hökumət bütün imkanlarını səfərbər edərək silah gücündən istifadə etməklə milləti qıra, hərəkatı yatıra bilər. Lakin silah gücünə etirazı zorla basdırmaq rejimin öz sonunu da gətirər. Xameneyinin yaşı 80-i keçib, prostat vəzi xərçəngindən əziyyət çəkir. Ölüm ayağındadır və hər an ölə bilər. Onun yerinə kim keçəcək, gərgin rəqabətdən kim qalib çıxacaq, bunlar bilinmir. Üstəlik, rejimin daxilində islahatçılarla mühafizəkarlar arasında da mübarizənin başladığı deyilir. Mühafizəkarların öz aralarında ixtilaflar var. SEPAH-la normal ordunun arasında, SEPAH-ın öz içində gərginlik var. Bütün bunları nəzərə alsaq, rejimin dağıla biləcəyini söyləyə bilərik. Amma rejim milləti qana çəksə, ömrü o qədər də uzun olmayacaq".

> "Millət ölkənin gələcəyini yaxşı görmür. İqtisadi durum çökmüş vəziyyətdədir. Xalq ancaq quru çörək alıb yeyə bilir, bəziləri heç onu da tapmır"

> "Bu miqyasda etirazını xarici qüvvələrə bağlamaq ədalətsizlikdir. Heç bir kənar güc ölkənin 80-dən çox şəhərində etirazlar başlada bilməz"

**Həmsöhbətimiz budəfəki etirazların baş verdiyi zamana da diqqət çəkib:** "İranda işsizlik son dönəmlər çoxalıb. Əvvəllər rejim bundan öz xeyrinə istifadə edirdi, indi isə işsizlik hökumətin ziyanınadır. Çünki etiraza çıxanların böyük qismi "işimdən olaram" qorxusu yaşamayan işsiz şəxslərdir. Millət ölkənin gələcəyini yaxşı görmür. İqtisadi durum çökmüş vəziyyətdədir. Xalq ancaq quru çörək alıb yeyə bilir, bəziləri heç onu da tapmır. Hətta Qərblə nüvə anlaşması imzalansa, sanksiyalar ləğv olunsa, embarqo aradan qalxsa belə yenə də İranın iqtisadi problemləri həllini tapmayacaq. Xarici şirkətlər, investorlar risk alaraq İrana sərmayə qoymayacaqlar. Çünki bu hal bir neçə dəfə təkrarlanıb və hər dəfə ziyan görüblər. Üstəlik, Ukrayna ilə müharibədən sonra Rusiyaya qarşı tətbiq edilmiş ağır sanksiyalar da İrana təsirsiz ötüşməyib. İran qanunsuz yollarla neft satdığı müştərilərinin çoxunu itirib, Rusiya əlindən alıb. İki ölkə arasında ixtilaflar da çoxalmaqdadır. Ermənistan məsələsində, o cümlədən Suriyada Rusiya ilə İranın yanaşması fərqlidir. İran ən yaxın müttəfiqi Rusiyanı da itirir, siyasi və iqtisadi cəhətdən təklənib. Məmləkətin öz içində dövlət millətdən ayrılıb. Yəni bu rejimin getməsi üçün şərait hərtərəfli hazırdır. O baxımdan biz də hər hadisəyə hazır olmalıyıq. Güney Azərbaycanda şüarlar milli xarakterlidir, istəyimiz milli dövlətçilikdir. Bunun tam müstəqillik, yoxsa ən yüksək səviyyədə federal sistem olacağını indidən demək çətindir. Təbii ki, bizim istəyimiz Güney Azərbaycanın müstəqil dövlət olmasıdır. Bunu gedişat təyin edəcək".

**Ekspert əlavə edib ki, rejim artıq milli fəalların "ovuna" çıxıb:** "Gecələr evlərə basqın edirlər, fəalları tuturlar. Amma bu da faydasızdır. Çünki piketlərdə polisin qarşısında duran, polisin zorakarlığına daşla cavab verən insanlar əsasən gənclərdən ibarətdir. Gənclər iş və azadlıq istəyirlər. Təbrizdə aksiyaları başladanlar gənc xanımlar olub. Bunlar fəallar deyil, millətdir. Vəziyyət çox gərgindir. İndiyə kimi 12 nəfərin rejim tərəfindən öldürüldüyü deyilir. Rejim gözləyir ki, bəlkə etirazçılar qorxar, evlərinə qayıdar".

*Ə.Obalının fikrincə, İrandakı etirazların xarici qüvvələrlə, hakimiyyət daxili qruplarla heç bir əlaqəsi yoxdur:* "Xalqın hakimiyyətə qarşı etirazı hamıya bəllidir. Bu miqyasda etirazını xarici qüvvələrə bağlamaq ədalətsizlikdir. Heç bir kənar güc ölkənin 80-dən çox şəhərində etirazlar başlada bilməz. İstənilən aksiyalarda belə iddialar gündəmə gətirilir. Reallıq odur ki, rejimin ömrü azalır və atdığı addımlarla öz ömrünü daha da qısaldır".

# Ərzaq məhsullarından ƏDV götürülsə ucuzlaşma olacaq

## Ekspert ümid edir ki, 2023-cü ilin büdcə müzakirələri zamanı bu təklif reallaşacaq



**Millət vəkili Vahid Əhmədov əlavə dəyər vergisinin (ƏDV) ərzaq məhsullarına 1-2 faizlə cəlb olunmasını təklif edib. Deputat hər şeyə 18 faiz ƏDV tətbiq etməyin doğru olmadığını, verginin diferensiallaşdırılmalı olduğunu deyib:**

"Hazırkı vəziyyətdə hökumət ərzaq məhsullarının idxalına gömrük vergisi tətbiq etməməlidir". Deputat Tahir Mirkişili isə Türkiyədə ƏDV-nin ləğvinin bahalaşmaya təsir etmədiyini, əksinə, dövlətin həmin vergini də itirdiyini vurğulayıb.

**İqtisadçı Natiq Cəfərli bildirib ki, təmsil olunduğu ReAL Partiyası hələ 3 ay əvvəl bu təklifi səsləndirib. Partiya rəsmisi deyib ki, bununla yanaşı, ərzaq məhsullarına tədbiq edilən Gömrük rüsumlarının azaldılması da vacibdir:** "Hörmətli Vahid bəyə təşəkkür edirəm. Ümid edirəm, 2023-cü ilin büdcə müzakirələri zamanı bu təklif reallaşacaq. Nəticədə ölkədə tüğyan edən ərzaq inflyasiyasının, qiymət artımının qarşısı alınacaq, bu isə əhalinin sosial vəziyyətinə müsbət təsir edəcək. Xatırladım ki, səsləndirdiyimiz təklifdə ölkədə satılan dərman preparatlarında da ƏDV-nin 2 faizə endirilməsi yer almışdı. Bu təklifin də reallaşması çox yaxşı olar. Nəticədə vətəndaşın ərzaq və dərman xərcləri xeyli yüngülləşəcək. Əgər hər iki təklif reallaşsa, bu gün marketlərdə kassada 50 manatlıq ərzağın üzərində 9 manat ƏDV ödəyiriksə, gələn ildən bu, 1 manata enə bilər. Yəni dəyəri 50 manat olan ərzağa 59 manat deyil, 51 manat ödəyə bilərik".

**İsmayıl**

# Daha 6 erməni hərbçinin meyiti qarşı tərəfə təhvil verilib

## Meyitlərə baxış keçirilmiş və onların üzərində hər hansı zorakılıq əlamətləri aşkarlanmayıb



**Azərbaycan sentyabrın 23-də Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəsilə ərazidə tapılmış daha 6 erməni hərbçinin meyitini Ermənistan tərəfinə təhvil verib.**

Bu barədə "Şərq"ə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından bildirilib.

Meyitlərə Azərbaycan Hərbi Prokurorluğunun iştirakı ilə baxış keçirilib və onların üzərində hər hansı zorakılıq əlamətlərinin olması müəyyən edilməyib.

Qeyd edək ki, Ermənistan silahlı qüvvələrinin sentyabrın 12-14-də Azərbaycan-Ermənistan sərhədində törətdikləri genişmiqyaslı təxribatlara qarşı Azərbaycan Ordusunun əks-hücum əməliyyatı nəticəsində həlak olaraq ərazidə qalmış erməni hərbi qulluqçularına aid meyitlərin axtarışı həyata keçirilir.

*Xatırladaq ki, sentyabrın 12-si gecə və 13-ü səhər saatlarında Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində genişmiqyaslı təxribat törədilib. Azərbaycan Silahlı Qüvvələri adekvat cavab tədbirləri görüb. Nəticədə Ermənistan silahlı qüvvələrinin 207 hərbçisi ölüb, 293 nəfər yaralanıb, 20 hərbçi əsir, 2 nəfər isə itkin düşüb.*

*Hazırda sərhəddə vəziyyət sabitdir, atəşkəsə əməl olunur.*

*Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatının qarşısını alarkən Azərbaycan Silahlı Qüvvələrinin 80 hərbi qulluqçusu şəhid olub, 281-i yaralanıb və müxtəlif dərəcəli bədən xəsarətləri alıb.*

*Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası bu günədək Azərbaycan tərəfinin 32 və 95 olmaqla ümumilikdə 127 erməni hərbçinin meyitini Ermənistana təhvil verdiyini açıqlayıb.*

# Paşinyan ya sülhə imza atacaq, ya da postunu itirəcək

## Vaşinqtonun siyasəti Ermənistan daxilində siyasi böhrana yol açacaq



**"Nikol Paşinyan BMT-də sülhdə maraqlı olmadığını elan etdi". Bu sözləri "Şərq"ə Milli Cəbhə Partiyasının sədrinin müavini, politoloq Məhəmməd Əsədullazadə deyib.**

Partiya təmsilçisi bildirib ki, ABŞ Prezidenti Co Bayden Ermənistanın müstəqilliyi günü münasibəti ilə Paşinyana təbrik məktubunda "Dağlıq Qarabağ xalqı" ifadəsi işlətməsi, Azərbaycanı Ermənistana "hücum etməkdə" ittiham etməsi, həmçinin Minsk qrupunun fəaliyyətinə eyham vurması Vaşinqtonun prosesləri qızışdırmaq siyasətidir: "Paşinyan bu kimi siyasi "dəstəkdən" istifadə edərək Azərbaycana qarşı yeni silahlı təxribatlara əl atır. Əlbəttə, Amerika Ermənistana birbaşa silah və logistik yardım etməyəcək. Amma siyasi mövqeyini ortaya qoyaraq Ermənistanı Rusiyanın orbitindən uzaqlaşdırmağa çalışır. Ağ Evin bu siyasəti Ermənistan daxilində siyasi böhrana yol açacaq və ölkə daxilində toqquşmaların baş verməsi ilə nəticələnəcək".

Ekspert xatırladıb ki, ötən gün Eçmiədzində Ermənistanın baş keşişi 2-ci Qareginin vasitəçiliyi ilə Rusiya yönümlü eksprezidentlər bir araya gəliblər: "Məqsəd ABŞ-ın Ermənistanda formalaşdırdığı siyasi proseslərin qarşısını almaqdır. Məhz Eçmiədzinin də bu prosesdə olması Paşinyana qarşı kilsənin və Rusiyayönlü siyasilərin yeni cəbhə açmasının göstəricisidir. Paşinyan qeyri-obyektiv mövqe sərgiləyir, 10 noyabr bəyanatının maddələrini təhrif edərək beynəlxalq ictimaiyyəti çaşdırır. Ümumiyyətlə, Ermənistan siyasi burulğana düşüb. Azərbaycana qarşı növbəti silahlı təxribatlara əl atmaqla vəziyyətdən çıxmağa çalışır. Amma bunun Ermənistan üçün mənfi təzahürləri olacaq. Paşinyan dilemma qarşısındadır. Ya sülh müqaviləsinə imza atıb Azərbaycanla münasibətləri normallaşdıracaq, ya da öz hakimiyyətini itirəcək".

**İsmayıl**

> **"Məlum olur ki, təkcə Rusiya deyil, həm də ABŞ-la İran da düşmənimiz Ermənistanın dostudur"**

**"ABŞ Prezidenti Co Bayden Ermənistanın müstəqillik gününü təbrik məktubuna "Dağlıq Qarabağ xalqı" ifadəsi işlədib. Təklif edirəm, Azərbaycan da Texas xalqı ifadəsini işlətsin. Üstəlik, Alabama və Nyu-Meksika ştatlarında çoxluq təşkil edən afro və latın amerikalıların siyasi və sosial durumu ilə maraqlanmağa başlasın".**



# 44 günlük müharibə xalqımızın gözünü açdı

## Baydenin qondarma təqdimatı da gərginliyin artmasına xidmət edir

*Bu fikirləri "Şərq"ə açıqlamasında politoloq Əhəd Məmmədli deyib.*

*Politoloq onu da bildirib ki, İran Silahlı Qüvvələrinin baş qərargah rəisi Məhəmməd Bağıri regionda sərhədlərin dəyişməyinə göz yummayacaqlarını deyib:*

"Regionda 27 ildir sərhədlər dəyişmişdi, onda niyə göz yumurdular? Kor və ya bəsirət gözləri indi açılıb?

Amerika və İranı "təbrik edirəm". Azərbaycan hər ikisinin birləşdiyi nöqtədir. Azərbaycan Ordusunun uğurlu Zəngəzur-Göyçə hərbi əməliyyatına qarşı daxildə qərbçilərlə, irançıların eyni mövqedə çıxış etməsi müşahidə edildi. Sən demə, bunları Xankəndi və Xocalı narahat edir. Rəsmi Bakı, Xankəndi və Xocalını yurisdiksiyasına qaytarandan sonra Azərbaycan Ordusu tarixi torpaqlarımız olan Qərbi Azərbaycanda düşməni sülhə təhrik etmək üçün yeni cavab əməliyyatları keçirəndə yenə qərbçilərlə, irançılar başqa bəhanələrlə dövlətlərinə qarşı çıxacaqlar. Çünki onların başqa dövlətləri var".

**Ə.Məmmədlinin qənaətincə, 44 günlük müharibə xalqın gözünü açdı:** "Kimin əsl dost, kimin isə münafiq düşmən olduğunu bizə göstərdi. Əbəs yerə deməyiblər dost çətin gündə bilinər. 44 günlük müharibə və ondan sonrakı hadisələr Azərbaycanın bir dövlət, xalq olaraq gələcəyini, müqəddəratını həll edən anlar idi. O anlarda kimin kim, kimin yanımızda, kimin qarşımızda olduğunu gördük. 44 günlük müharibə və ondan sonrakı hadisələr Azərbaycan xalqına göstərdi ki, təkcə Rusiya deyil, həm də ABŞ-la İran da düşmənimiz Ermənistanın dostudur".

*Qeyd edək ki, ABŞ Prezidenti Co Baydenin Ermənistanın müstəqillik günü münasibətilə Nikol Paşinyana ünvanladığı təbrik məktubunda "Dağlıq Qarabağ xalqı" qeydi diqqət çəkir.*

*Bayden deyir: "Biz Dağlıq Qarabağ xalqı da daxil olmaqla münaqişənin sülh yolu ilə həllini təşviq etmək üçün sizinlə və qarşı tərəflə işləməyə davam edəcəyik". Bu qondarma təqdimat ABŞ rəhbərliyinin son zamanlar bölgədə gərginliyin artmasına xidmət edən addımlarından biri kimi qiymətləndirilir.*

**Aygün Tahir**

# Rusiyanın Gürcüstanla sərhədində böyük tıxac

## Son üç gündə Rusiyanı tərk etmək istəyənlərin sayı artıb



**Rusiyanı tərk etmək istəyənlərdən 2 minə yaxın minik avtomobili Rusiyanın Gürcüstanla sərhədindəki keçid məntəqəsinin qarşısında toplanıb.**

"Report" Rusiya KİV-ə istinadən xəbər verir ki, bu barədə Rusiyanın Şimali Osetiya Respublikasının Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

"Şimali Osetiya-Alaniya Respublikası ərazisində Şimali Osetiya-Alaniya Respublikasına gələn və Yuxarı Lars keçid məntəqəsindən keçmək üçün növbə gözləyən 2 000-ə yaxın yüngül avtomobilin xeyli sayda yığılması müşahidə olunur", - məlumatda bildirilib.

Şimali Qafqaz Gömrük İdarəsinin saytındakı məlumata görə, son üç gündə Rusiyanı tərk etmək istəyənlərin sayı artıb. Sentyabrın 20-də, Moskva vaxtı ilə saat 06:00-da Rusiya tərəfində keçid məntəqəsinin qarşısında maşın növbəsi yaranmayıb. Ümumilikdə bu tarixdə gündə 1 353 avtomobil buraxılıb. Sentyabrın 21-də, Moskva vaxtı ilə saat 06:00-da keçid məntəqəsinin qarşısında artıq 50 avtomobil olub, 1 261 nəqliyyat vasitəsi Rusiyanı tərk edə bilib.

Bildirilib ki, hazırda yük avtomobillərin sayı 1 231 ədəddir. Yük maşınlarının sürücüləri elektron növbəyə uyğun hərəkət edirlər.

*Qeyd edək ki, sentyabrın 21-dən sosial şəbəkələrdə avtomobil növbəsinin artması ilə bağlı məlumatlar yayılmağa başlayıb. Hadisə şahidlərinin sözlərinə görə, Rusiyanı tərk etmək istəyənlərin sayı artmaqda davam edir.*

# Qərb Rusiyanı Ukraynada dayandırmağa məcburdur

## Ya bunu bacaracaqlar, ya da müəyyən zaman kəsiyindən sonra təhlükəni qapılarında hiss edəcəklər



**"G-7"-yə daxil olan dövlətlər Ukraynanın işğal olunan ərazilərinin Rusiyaya birləşdirilməsi ilə bağlı keçirilən "referendum"u tanımadığını bəyan ediblər.**

Bu barədə Almaniyanın Xarici işlər naziri Annalena Berbok BMT Baş Assambleyasının Nyu-Yorkda keçirilən 77-ci sessiya çərçivəsində "G-7"-liyə daxil olan ölkələrin xarici işlər nazirlərinin görüşünün yekununa dair açıqlamasında bildirib: "Rusiyanın hərbi mövcudluğu, hədə-qorxu və məcburi deportasiya şəraitində keçirilən istənilən "referendum" azad və ədalətli ola bilməz". Qeyd edək ki, sentyabrın 23-dən işğal altında olan Ukrayna ərazilərinin Rusiyaya birləşdirilməsinə dair "referendum" başlayıb və sentyabrın 27-dək davam edəcək.

**Hərbi-siyasi ekspert Həşim Səhrablı "Şərq"ə bildirib ki, Rusiyanın Ukraynada başlatdığı işğalın ilk günündən "G-7"-nin mövqeyi bəllidir:** "Bunu İngiltərə və Amerika kimi ölkələrin Ukraynaya texniki, maddi yardımlar etməsindən də görə bilirik. Almaniya və Fransa kimi ikinci dərəcəli ölkələr Ukraynaya ABŞ, İngiltərə qədər olmasa da, müəyyən qədər yardım ediblər. Bunu bəyan etməkdən də çəkinmirlər. Yalnız "G-7" deyil, Avropa Birliyi ölkələri də yekdilliklə qərar veriblər ki, bütün hallarda Ukraynanı dəstəkləməyə davam edəcək, Rusiyanın təcavüzkar siyasətinin daha geniş vüsət almasına imkan verməyəcəklər.

İngiltərə və ABŞ-ın hegemon olduğu "Qərb bloku" həm "G-7", həm də Aİ səviyyəsində Ukraynanın işğal olunmaması üçün dirənirlər. Burda onların əsas məqsədi Ukrayna və onun xalqını qorumaq deyil.

Həm "G-7", həm də Aİ ölkələrinin gələcəyi hazırkı prosesdən asılıdır. Çünki onlar bilirlər ki, Rusiya heç bir maneə olmadan Ukraynadakı işğalını tamamlayarsa, bundan sonra onu durdurmaq olmayacaq. Belə olduqda rəsmi Moskvanın iddiaları daha da artacaq. O, dünya siyasətində yeganə söz sahibi olmaq istəyəcək.

Artıq heç bir iqtisadi sanksiya onun üçün əhəmiyyətli olmayacaq. Bütün bunları hesablayan Qərb ölkələri Rusiyanı Ukraynada dayandırmağa məcburdurlar. Ya bunu bacaracaqlar, ya da müəyyən zaman kəsiyindən sonra öz qapılarında da rus təhlükəsini hiss edəcəklər. Bu da şübhəsiz ki, onların milli varlığını sual altında qoyacaq və dünyəvi maraqlarını sarsıdacaq".

**Günəş Mərd**

# Rüşvətxor direktorlar məktəbləri çökdürüb

## "Ayıbdır, nə vaxta qədər bu dilənçilik davam edəcək?!"



**"Ümid edirəm ki, Bərdə rayonu Adil Süleymanov adına Şorəlli kənd tam orta məktəbin direktoru Əliyeva Gülnarə Qanboy qızının müəllimdən pul tələb etməsini Qarabağ Regional Təhsil İdarəsi obyektiv şəkildə araşdıracaq".**

Bu barədə "Şərq"ə təhsil eksperti Elşən Ramizoğlu bildirib. Onun sözlərinə görə, direktorun müəllimdən rüşvət alması bağışlanmaz səhvdir: "Bir çoxları elə bilir ki, direktor təyin olunduqdan sonra varlı həyat yaşamalıdır. Sanki müəllimin də məktəb rəhbərini varlandırmaq öhdəliyi var. Ayıbdır, nə vaxta qədər bu dilənçilik davam edəcək?!

Bəzən analoji məqamlarda müəllim şikayət etməyə çəkinir və ya utanır, direktor da bundan istifadə edib, pul tələb edir. Hesab edirəm ki, sözügedən amillərin yaranmasında müəllimlərin də təsiri böyükdür.

Onlar müəssisədə birlik nümayiş etdirib, direktora qarşı dirəniş göstərsələr, bu kimi situasiyalar yaranmazdı. Rüşvətxor Təhsil Şöbə müdirləri "alıb-vermək" qabiliyyəti olan şəxsləri direktor təyin etməkdə maraqlı idi. Bu gün də çox zaman onun fəsadlarını yaşayırıq".

*Qeyd edək ki, Bərdə rayonu Adil Süleymanov adına Şorəlli kənd tam orta məktəbin direktoru Əliyeva Gülnarə Qanboy qızının müəllimdən pul tələb etməsi ilə bağlı səs yazısı yayılıb. Şikayətçi, adı çəkilən məktəbin müəllimi Dursun Babayeva bildirib ki, direktor ondan hər ay 165 manat rüşvət alıb.*

**Sücayət Mehti**



# Sayları hər gün artır

## Nəzarətsiz məktəblərdə şagirdlər siqareti qrup halında çəkirlər

**Son illər məktəblilər arasında zərərli vərdişlərə meyillilik çoxalıb. Valideyn nəzarətindən kənarda qalan bir çox məktəbli siqaret, spirtli içki, narkotik vasitə kimi həyat üçün zərərli vərdişlərə meyil edirlər. Nəticədə həmin şagird həm təhsildən yayınır, həm də gələcək həyatını sual altına salır. Bu məktəblilər təkcə özünü deyil, yaxın dostlarını da bu uçuruma doğru aparır.**

Uşaqları bu və bunun kimi zərərli vərdişlərdən necə qoruya bilərik? Ümumiyyətlə, uşaqların bu həyat tərzi hansı psixoloji amillər nəticəsində meydana gəlir?

Mütəxəssislərin fikrincə, erkən yaşda siqaret çəkməyin çox ciddi fəsadları var. Azyaşlı oğlan və qızların siqaret çəkməsi birmənalı olaraq həvəsdir. Bu həvəs isə onların sağlamlığına ciddi ziyan vurur. Onlar potensial olaraq xərçəng xəstələri hesab olunurlar. Psixoloqlar isə hesab edir ki, siqaretin orqanizmə mənfi təsirləri ilə bərabər məsələnin psixoloji tərəfləri də diqqətdən yayınmamalıdır.

İlk olaraq bilmək lazımdır ki, uşaqlar niyə siqaret çəkir?

Bəzən normadan artıq özgüvən əksikliyi yaşayanda, ailədə davamlı şiddətə məruz qalanda, uşaqlarda modaya ayaq uydurmaq üçün, bundan əlavə dostlarının yanında özünü böyük göstərmək üçün siqaretə maraq yaranır. Bəzi uşaqlar isə siqaret çəkməyi öz böyüyündən gördüyü üçün uşaq ağlı ilə böyüməyin ilkin əlamətlərindən biri kimi dəyərləndirir.

**"Uşaqlar məktəb yaxınlığında və digər onlara yaxın ərazilərdə yerləşən mağazalardan siqareti asanlıqla əldə edirlər. Bu da onlara daha bir rahatlıq yaradır"**

**Məsələ barədə "Şərq"ə açıqlama verən psixoloq Sənubər Yusifova da hesab edir ki, övladlarının yanında siqaret çəkən atalar uşaqlarına birbaşa mənfi örnəkdirlər:**

"Düzdür, elə ailələr var ki, orada heç uşağın böyükləri siqaret çəkmir. Belə uşaqlar isə ətrafındakı təsirlərdən siqaret çəkməyə maraqlı olur. Valideyn uşağa xərclik verərkən onu hara, hansı cür xərcləyəcəyinə də fikir verməlidir. Mən də çox narahatam ki, orta məktəb şagirdlərinin siqaretdən istifadə etməsi gündən-günə artır. Uşaqlar bunu faydalı, lazımi bir vasitə kimi istifadə edirlər.

Siqaret çəkən insanın ən az 18 yaşı olmalıdır. Amma hazırda müxtəlif yaş kateqoriyasına mənsub olan uşaqlar buna əməl etmir. Onlar hətta bəzi nəzarətsiz məktəblərin həyətlərində siqaret çəkirlər. Uşaqlar siqareti əsasən qrup halında çəkirlər. Tək halda siqaret çəkən azyaşlı birisini görmək çətindir. Uşaqların siqaret çəkməyə başlamasının əsas səbəbi buna qrup şəklində başlamalıdır. Onlara baxıb, bu pis vərdişlərdən istifadə etməyənlər də siqaretdən istifadə edir. Aşağı siniflərdə oxuyanlar yuxarı siniflərin siqaretdən istifadə etməsini görüb, çəkməyə başlayırlar. Hətta bəziləri bunu özləri üçün fəxr hesab edirlər. Uşaqlar siqaretin necə zərərli bir vasitə olduğunu bilmir. Onlar siqaretin tərkibi və zərərlərindən xəbərsizdirlər. Çünki onlara siqaretin profilaktikasını keçməyiblər. Məktəbdə müəllimlər şagirdləri Həyat bilgisi kimi dərslərdə siqaretin zərərlərindən, onun tərkibindən, siqaret istifadə edərlərsə, gələcəkdə həmin uşaqları nəyin gözləməsindən xəbərdar etməlidirlər.

Mütəmadi məktəblərdə şagirdlərə siqaretə qarşı təbliğatlar aparılmalıdır. Yalnız bu yolla onlar bundan uzaq dura bilərlər. Mən bir neçə dəfə məktəb şagirdlərinə bunun profilaktikasını keçmişəm. Bu zaman müşahidə etmişəm ki, şagirdlər siqaretin zərərlərindən xəbərsizdir. Uşaqlar məktəb yaxınlığında və digər onlara yaxın ərazilərdə yerləşən mağazalardan siqareti asanlıqla əldə edirlər. Bu da onlara daha bir rahatlıq yaradır. Uşaqlar siqaretdən imtina etməyi, sağlam yaşamağı düşünə bilmirlər. Çünki bu sahədə onların təcrübələri azdır. Uşaqlar arasında passiv siqaret çəkmə halları da yaşanır. Bu hal əsasən qrup halında siqaret çəkdikdə yaşanır. Orada siqaret çəkənlər aktiv formada, çəkməyənlər isə siqaretin tüstüsünü qəbul edərək passiv formada bundan istifadə edirlər".

**Şəymən**

# Bakı Tehrana dəfələrlə düz yolda olmadığını başa salıb

## "İranın erməni qardaşlığı siyasəti bu ölkəni uçuruma aparır"

**Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov və iranlı həmkarı Hüseyn Əmir Abdullahian regional məsələləri müzakirə ediblər. "Şərq" xəbər verir ki, bunu C.Bayramov tviterdə yazıb.a**

Nazirlər regional məsələlərlə yanaşı, ikitərəfli əlaqələr barədə də fikir mübadiləsi aparıblar.

C.Bayramov İranın xarici işlər nazirini Ermənistanın Azərbaycanla sərhəddə törətdiyi son təxribatlar barədə məlumatlandırıb.

**Görüşü "Şərq"ə şərh edən beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli vurğulayıb ki, İran son proseslərdə anti-Azərbaycan mövqeyini daha da gücləndirib: "İranda ciddi xəstə təfəkkürü var.** Təsəvvür edin ki, İran Məsiha Əmininin öldürülməsi ilə başlayan prosesi, Zəngəzur dəhlizindəki Türkiyə-Azərbaycan-İsrail üçbucağının "tələsi" kimi qələmə verir. Təbii ki, daxildəki hadisələrə yönəlik xarici düşmən axtarmaq, hakimiyyətlərin idarəetməsində geniş tədbiq olunan texnologiyadır. Lakin mühüm məqam Nikol Paşinyanla, İbrahim Rəisinin dünənki görüşüdür. Orada əməkdaşlıq və münasibətlərin sıx şəkildə saxlanılması ilə bağlı vurğular edildi. Paşinyan Rəisiyə göstərdiyi dəstəyə görə təşəkkür etdi. Digər tərəfdən isə davamlı şəkildə artan təhdidlər fonunda, İran və Azərbaycan xarici işlər nazirinin görüşünə ciddi ehtiyac var idi. Çünki İran hakimiyyətinin rəsmi İrəvanın yanında olması və onları silahlandırması regionda qarşıdurma yarada bilər. Onlar rəsmi Bakı ilə bağlı yanlış siyasət yürüdürlər". Ekspert görüşün pərdə arxasında yeni detalların olduğunu düşünür: "Ermənistan və İran rəhbərlərinin görüşündən sonra Bayramov və Abdullahianın bir araya gəlməsi Azərbaycanın ciddi şəkildə



narahatlıq ifadə etməsini göstərir. Rəsmi Tehranın indiki dövrdə həyata keçirdiyi erməni qardaşlığı siyasəti və daxilindəki problemləri xarici güclərin üstünə atması onu uçuruma aparır. Biz region olaraq çox ciddi sınaq qarşısındayıq. Əminəm ki, Ceyhun Bayramovun qovluğunda da bu məsələ gündəm təşkil edir".

**Nihat Müzəffər**

# "Tıxac probleminin həllini tapa bilərik"

## Çıxış yolu dayanıqlı şəhər mobilliyi prinsiplərinin tətbiqidir



**Bakı Nəqliyyat Agentliyinin mətbuat xidmətinin rəhbəri Mais Ağayev sosial şəbəkələrdə müzakirə predmetinə çevrilən yollarda artan nəqliyyat sıxlıqları ilə bağlı probleme münasibət bildirib. O qeyd edib ki, tıxac problemindən çıxış yolu dayanıqlı şəhər mobilliyi prinsiplərinin tətbiqidir. Şəhər mühitinin avtomobillər üçün yox, insanlar üçün rahat və əlçatanlığı əsas götürülməlidir. Biz hərəkət imkanlarımızı genişləndirməklə tıxac probleminin həllini tapa bilərik:**

"BNA-nın indiyədək həyata keçirdiyi bütün tədbirlərin ana xətti də məhz elə həmin prinsiplərdən ibarətdir. Sözügedən prinsiplər əsas götürülməklə Agentliyin 6 ildə qurmağa çalışdığı şəhər nəqliyyatının əsasında ictimai nəqliyyat dayanır. Ötən dövrdə sektorda yeni xidmət standartları gerçəkləşib. Nağdsız ödəniş sisteminə keçilib, maliyyə şəffaflığı artırılıb. Müasir infrastruktur yaradılıb, avtobus parkının əhəmiyyətli hissəsi yenilənib və proses davam etməkdədir".

M.Ağayev onu da əlavə edib ki, ictimai nəqliyyatın səmərəli fəaliyyəti və etibarlılığının artırılması üçün zəruri faktorlardan biri də xüsusi zolaqların təşkilidir: "Dünya təcrübəsi də avtobus zolaqlarının tıxacların qarşısının alınmasında əhəmiyyətli təsir vasitəsi olduğunu göstərir. Hazırkı günədək Agentliyin təşəbbüsü ilə 10 küçə və prospektdə avtobus zolağı təşkil edilib. Amma zolaqlardan düzgün istifadə və davamlılıq olmadığından onların səmərəliliyi nəzərə çarpmır. İctimai nəqliyyatın cəlbediciliyini artırmaq, həmçinin qeyri-qanuni sərnişindaşımaların qarşısının alınması baxımından da faydalıdır. Çünki tıxacların yaranmasına rəvac verən qanunsuz daşımalar ictimai nəqliyyatın fəaliyyətinə mənfi təsir göstərməklə onun gəlirliyini azaldır və ümumilikdə sistem üçün əhəmiyyətli risklər yaradır".

Qurum sözçüsünün qənaətincə, tıxacların və sürətli avtomobilləşmənin qarşısının alınmasından ötrü daha çox piyada gəzintiləri təşviq olunmalı və piyada infrastrukturu inkişaf etməlidir: "Son 6 ildə Agentlik tərəfindən 200-ə yaxın küçədə piyada əlçatanlığı və təhlükəsizliyinin təmin edilməsi ilə bağlı müxtəlif tədbirlər həyata keçirilib. Səkilərdə pandus, təhlükəsizlik tumbası, məhəccər quraşdırılıb, səkilər standartlara uyğunlaşdırılıb. Görülən işlər şəhərdə piyada təhlükəsizliyinin artırılmasına töhfə verib. 2021-ci ildə 2019-cu illə müqayisədə piyadaların iştirakı ilə baş verən hadisələrin sayı 7 faiz, 2021-ci ildə piyadaların iştirakı ilə baş verən yol-nəqliyyat hadisələrinin sayı 2016-cı il ilə müqayisədə 26.8 faiz az olub.

Bütün digər iri şəhərlərdəki kimi tıxac və sıxlıq halları paytaxtımız üçün də səciyyəvidir. Lakin yollarda tıxaca şərait yaradan halların aradan qaldırılmasına düzgün yanaşmaqla biz onun təsirlərini minimuma endirə bilərik. Düzgün yanaşma isə alternativsiz dayanıqlı şəhər mobilliyi prinsipləridir. Cəmiyyət olaraq da hər birimiz işin tənqidçisi deyil, tam əksinə, təbliğatçısı kimi çıxış etməliyik".

**Aygün Tahir**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi;**



# Qarabağda quruculuq işləri sürətlənir

## Hökumət çalışır ki, sözügedən zonada iş yerləri açılsın, normal həyat üçün tam və hətta digər bölgələrimizdən də yüksək şərait yaransın, tezliklə sıx məskunlaşma getsin

**Ağdam Sənaye Parkına rezidentlər 50 milyon manatdan çox investisiya yatırmağı, 1 000-dən artıq iş yeri yaratmağı planlaşdırır. Bunu İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Elşad Nuriyev Şuşada keçirilən Türk Biznes Forumunda deyib.**

O bildirib ki, Qarabağın bərpası və dirçəldilməsi, sənaye potensialının inkişaf etdirilməsi məqsədi ilə ölkə prezidentinin müvafiq fərmanlarına əsasən Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları yaradılıb. Birinci sənaye parkı 190 hektar ərazini əhatə edir, burada 9 rezident və 2 qeyri-rezident qeydiyyata alınıb. Bu rezidentlər Parka 50 milyon manatdan çox investisiya yatırmağı, 1 000-dən artıq iş yeri yaratmağı planlaşdırır. Artıq rezidentlərdən "Dadaş-N" və "Veliev" MMC-lər tikinti işlərinə başlayıb. Digər rezidentlər isə layihələndirmə, torpağın hamarlanması işləri görür. İkinci sənaye parkı isə 200 hektar ərazini əhatə edir, burada 1 sahibkara rezidentlik, 1 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Qeydiyyata alınmış rezident "KAMAZ Azərbaycan Lizinq" MMC artıq torpaq və fundament işlərinə başlayıb, parka 6 milyon ABŞ dolları yatırmağı və 65 daimi iş yeri yaratmağı nəzərdə tutur. Qeyri-rezident - "Azpetrol" MMC isə yanacaqdoldurma məntəqəsi tikəcək. Artıq baş plan təqdim olunub, işlər davam edir.

E.Nuriyev bildirib ki, hazırda işğaldan azad edilmiş ərazilərdə yaradılmış sənaye parklarında investisiya dəyəri 60 milyon manatdan çox olan 15 layihəyə baxılır və bu layihələrin reallaşdırılması nəticəsində 800 nəfər daimi işlə təmin ediləcək".

Həmçinin, bəyan edib ki, Ağdam və Cəbrayıldakı sənaye parklarında bəzi güzəştlər tətbiq ediləcək: "Ağdam və Cəbrayıldakı ("Araz Vadisi İqtisadi Zonası") sənaye parklarında bəzi güzəştlər tətbiq ediləcək: "Sahibkarlara xüsusi güzəştli bank kreditlərinin verilməsi, kommunal xidmətlərin endirimli tariflə təklif edilməsi, sosial sığorta ödənişlərinin subsidiyalaşdırılması, xammal idxalının gömrük və yaxud əlavə dəyər vergisindən azad edilməsi nəzərdə tutulub".

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov deyib ki, KOBİA Azərbaycan dövlətinin Qarabağa dair inkişaf konsepsiyasına uyğun olaraq işğaldan azad edilmiş ərazilərə investisiya qoyuluşu və biznes layihələrinin reallaşdırılması ilə bağlı məsələləri qarşıdakı dövrdə strateji fəaliyyət gündəliyinin prioritet istiqamətlərindən birinə çevirib. Bu məqsədlə hazırda tərəfimizdən 3 istiqamətdə işlər aparılır: "Qarabağın investisiya potensialının geniş auditoriya kütləsinə tanıdılması, azad olunmuş ərazilərdə bizneslərin yaradılması ilə bağlı müraciətlərin qəbulu və ilkin biznes infrastrukturunun qurulmasına dəstək. Agentlik tərəfindən qeyd edilən sahələrdə müvafiq tədbirlər həyata keçirilir. Hələ 2020-ci ilin noyabr ayında, Vətən müharibəsi başa çatdıqdan az müddət sonra "MUSİAD Expo 2020" sərgisində KOBİA-nın təşkilatçılığı ilə "Qarabağ Azərbaycandır" stendi fəaliyyət göstərib. Qarabağın investisiya potensialı beynəlxalq səviyyədə KOBİA tərəfindən ilk dəfə məhz qardaş Türkiyədə nümayiş olunub. Eyni zamanda, 2021-ci ildə KOBİA-nın təşkilatçılığı ilə baş tutan İBF Beynəlxalq Biznes Forumu və Mədəniyyət və İnvestisiya Sammitində, bu ilin mart ayında Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilmiş İllik İnvestisiya Toplantısı çərçivəsində təşkil olunmuş sərgidə, eləcə də digər yerli və beynəlxalq tədbirlərdə işğaldan azad edilmiş Azərbaycan ərazilərinin potensialı və investisiya qoyuluşu imkanları nümayiş olunub". Vurğulayıb ki, ikinci istiqamət üzrə bildirmək istərdim ki, işğaldan azad edilmiş ərazilərin zəngin iqtisadi və investisiya potensialı bu ərazilərdə yeni biznes layihələrinin həyata keçirilməsi və investisiyaların cəlb edilməsinə şərait yaradır: "Qələbədən dərhal sonra KOBİA Qarabağda biznes qurmaq istəyən sahibkarların, o cümlədən xarici iş adamlarının biznes layihələrinin qəbuluna başlayıb. Müraciətlərin intensivliyi və həcmi yerli və xarici investorların Qarabağda biznes fəaliyyətinə marağının yüksək olduğunu göstərir. Bu günə qədər 1300-ə yaxın müraciət müvafiq formaya uyğun qeydə alınıb. Onların da 460-dan çoxu xarici müraciətdir və 40-a yaxın ölkə daxil olmaqla geniş coğrafi dairəni əhatə edir. Xarici müraciətlərin yarıdan çoxu Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi ölkələrin payına düşür. Onların sırasında Türkiyə, Qazaxıstan, Özbəkistan, Türkmənistan və Macarıstan yer alır. Daxil olmuş layihələr əsasən ticarət, xidmət, inşaat, sənaye, kənd təsərrüfatı, mədəniyyət, təhsil, nəqliyyat, logistika və digər sahələri əhatə edir".

O.Məmmədov qeyd edib ki, KOBİA mandatı çərçivəsində Qarabağda zəruri biznes infrastrukturunun yaradılması məqsədilə əlaqələndirmə işləri də aparır: "Azad edilmiş bölgələrimizdə zəruri ehtiyacların ödənilməsi ilə bağlı KOBİA-nın təşkilatçılığı ilə bir qrup sahibkarlarla Füzuli, Zəngilan, Qubadlı, Cəbrayıl, Ağdam, Kəlbəcər və Laçın rayonlarına səfərlər təşkil edilib. Nəticə olaraq bir sıra ərazilərdə biznes və ictimai xidmət obyektləri istifadəyə verilib. Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində yaradılmış suvenir istehsalı müəssisəsi isə türk qardaşlarımız ilə birgə işbirliyinin uğurlu nəticəsidir. Ümumilikdə, Qarabağ regionunda infrastrukturun yenidən qurulması, eləcə də biznes potensialının reallaşdırılması istiqamətində aparılan işlərə özəl sektorun və xarici investorların cəlb edilməsi mühüm əhəmiyyət kəsb edir. Özəl sektorun prosesdə iştirakı dövlət investisiya xərclərinin azaldılması, habelə alternativ və şaxələndirilmiş maliyyələşmə mexanizmləri vasitəsilə yerli və xarici sərmayələrin cəlb edilməsi baxımından faydalı ola bilər. Xarici tərəfdaşlar ilə birgə Qarabağda biznes layihələrinin icrasi üçün digər təşkilati-hüquqi modeli kimi KOB klasterlərinin yaradılmasını qeyd etmək olar. Azərbaycan Respublikasının Vergi Məcəlləsində KOB klaster şirkəti və KOB klasterin iştirakçısı üçün bir sıra vergi güzəştləri nəzərdə tutulub".

**İqtisadçı Pərviz Heydərov "Şərq"ə bildirib ki, işğaldan azad olunan ərazilərimizdə bilirsiz ki, hazırda yenidənqurma və bərpa işləri gedir.** Bu işlər 2020-ci ilin dekabrından başlanıb və getdikcə də böyük sürət almağa, geniş xarakter daşımağa və bütün aspektlər üzrə əhatəli əhəmiyyət kəsb etməklə müvafiq inkişaf xətti götürüb: "Sənaye parklarının yaradılması və ümumiyyətlə, biznes üçün tələb olunan şəraitin təmini işləri də bütün bunların tərkib hissəsi olub və olaraq da qalır. Hökumət bütün vasitələrdən istifadə etməklə əlindən gələni edir ki, sözügedən zonada iş yerləri açılsın, normal həyat üçün tam və hətta digər bölgələrimizdən də yüksək şərait yaransın, tezliklə sıx məskunlaşma getsin. Müxtəlif güzəştlərin, sahibkarlara xüsusi güzəştli bank kreditlərinin verilməsi, kommunal xidmətlərin endirimli tariflə təklif edilməsi, sosial sığorta ödənişlərinin subsidiyalaşdırılması, xammal idxalının gömrük və yaxud əlavə dəyər vergisindən azad edilməsi kimi tədbirlərin nəzərdə tutulması bununla əlaqədardır. Hesab edirəm ki, indiyədək Qarabağda biznes qurmaq üçün 1300-ə yaxın müraciət çox olmasa da, az da deyil. Bunlardan 460-dan çoxunun xarici müraciət olması mən deyərdim ki, hətta bəlkə də gözlənilməzdir. Ölkə daxilindən 40-a yaxın müraciət təbii ki, azdır. Sözügedən ərazilərdə iş qurmaq, investisiya yatırmaq istəyənlərə hələ çox güzəştlər təqdim olunacaq. Bu da biznes qurmaq istəyənlərin sayını artıracaq. Düşünürəm ki, elə indiki şəraitdə də bunu istəyənlər çoxdur, sadəcə ola bilsin ki, bəziləri hələ təhlükəsizlik amilini yetərli saymır və buna görə də gözləmə mövqeyi tutur".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Vahid informasiya sistemi yaradılacaq

## Dövlət qurumlarının beynəlxalq təşkilatlardan əldə etdikləri maliyyə vəsaitləri şəffaflaşdırılacaq



**Qrantların alınması daha da şəffaflaşdırılır. Məsələ Parlamentin plenar iclasına tövsiyə edilən "Qrant haqqında" qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.**

Layihəyə əsasən, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurumun Azərbaycan Respublikasının və ya həmin orqanın adından aldığı qrantların reyestri müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi qurumun təyin etdiyi qaydada aparılacaq.

Qanun layihəsində təklif edilən dəyişikliklərin əsas məqsədinin qrantların alınmasında şəffaflığı təmin etmək, bu sahədə müasir tələblərə cavab verən sistem formalaşdırmaq, qrantlar haqqında zəruri məlumatları əhatə edən vahid informasiya sistemi yaratmaq, nəzərdə tutulan reyestrin eyni forma, metod və prinsiplər əsasında aparılmasını təmin etmək olduğu qeyd olunub.

**Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının üzvü Azər Allahverənov "Şərq"ə açıqlamasında deyib ki, burada söhbət hökumət tərəfindən qeyri-hökumət təşkilatlarına ayrılan qrantlardan getmir:** "Dəyişiklik dövlət orqanlarına, müəssisə və təşkilatlarına beynəlxalq maliyyə (iqtisadi) təşkilatları, beynəlxalq donorlar, o cümlədən Avropa İttifaqı (Aİ) və digər beynəlxalq təşkilatlar tərəfindən ayrılan qrantlarla bağlıdır.

Bu qrantların uçotu isə müvafiq qaydada Ədliyyə Nazirliyi yanında Əhalinin Reyestr Xidməti tərəfindən aparılır. Çünki istənilən təşkilat qrant layihəsinin icrası üçün Ədliyyə Nazirliyindən bildiriş almalıdır. Ümumiyyətlə, ölkədə həyata keçirilən bütün qrant layihələri haqqında informasiyalar sözügedən Reyestr xidməti tərəfindən toplanır.

Azərbaycan hökuməti adından beynəlxalq təşkilatlardan qrant alan müvafiq dövlət qurumlarının həyata keçirdiyi layihələrlə bağlı qeydiyyat və hesabatlılıq öhdəliyi ciddi əhəmiyyət kəsb etmirdi. O layihələrlə bağlı detallar vahid informasiya sistemində yer almırdı. Milli Məclisə təklif edilən dəyişikliklər qəbul olunsa, dövlət qurumlarının beynəlxalq təşkilatlardan əldə etdikləri maliyyə vəsaitləri haqqında zəruri məlumatları əhatə edən vahid informasiya sistemi olacaq. Öhdəliyin İqtisadiyyat, yoxsa Ədliyyə Nazirliyinə verilməsi də hələlik sual altındadır. Dəyişikliklər hələ ki təklif formasındadır. Aidiyyəti strukturlar hansı qərarı verəcək, bəlli deyil".

**Şəymən Bayramova**

**"Əslində, elə bir sistem olmalıdır ki, ehtiyacı olanlar sosial yardım alsın, işə ehtiyacı olanlar isə işlə təmin olunsunlar"**



# Hicran Hüseynova həqiqətləri malalamağa çalışır

## "Belə deyil axı, işsizliklə bağlı regionlarımızda ciddi problemlər var "

**Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin iclasında komitə sədri Hicran Hüseynova sosial yardımın insanları xarab etdiyini deyib.**

Parlamentin komitə sədri vurğulayıb ki, insanlar işləmək istəmirlər: "Müraciət edirlər ki, mənə yardım düzəldin. Mən onlara iş deyirəm, amma insanlar balaca da olsa, o yardımı almağa üstünlük verir. Belə olmaz". Parlamentin komitə sədrinin səsləndirdiyi fikirlər cəmiyyət tərəfindən də birmənalı qarşılanmayıb.

**Məsələyə münasibət bildirən iqtisadçı Natiq Cəfərli bu barədə "Şərq"ə danışarkən söyləyib ki, H.Hüseynovanın açıqlaması ölkəmizdə on minlərlə, yüz minlərlə iş yerlərinin olduğunu və vətəndaşlarımızın da işləmək istəmədiyini göstərir:** "Belə deyil axı. İşsizliklə bağlı hazırda ölkəmizdə, xüsusilə də regionlarımızda ciddi problemlər var. Regionlarda iqtisadi imkanlar olduqca məhdududdur. Yetərincə iş yerləri yoxdur. İşsizlik faizi 6,8-dir.

Bu, çox böyük rəqəm deyil. Amma qeyri-rəsmi işsizlik faizi bundan daha yüksəkdir. Çünki bizdə işsiz kimi qeydiyyata alınmağın özü də çətin prosedurdur.

Bu çətinliyə görə də əhali buna meyilli deyil. Bu mənada sosial yardımların insanları korlamağı fikri reallığı əks etdirmir. Əslində, elə bir sistem olmalıdır ki, ehtiyacı olanlar sosial yardım alsın, işə ehtiyacı olanlar isə işlə təmin olunsunlar. O zaman belə qeyri-leqal yanaşmalara da ehtiyac qalmaz. Bu açıqlama göstərir ki, ölkəmizdə insanların müxtəlif yollarla sosial yardım almaq imkanları var.

Əgər belədirsə, dövlət orqanları da həmin imkanların qarşısını almalı və yalnız ehtiyacı olanlar sosial yardımla təmin olunmalıdırlar".

**Günəş Mərd**

# Kreml sadəcə təhdid edir

## Nüvə silahından istifadə Rusiyanın sonu deməkdir



**"İstər Dmitri Medvedyev, istərsə də Vladimir Putinin nüvə silahından istifadə ilə bağlı açıqlamaları blefdir".**

Bu sözləri "Şərq"ə siyasi şərhçi Fuad Abbasov bildirib. Onun sözlərinə görə, strateji nüvə silahını vaxtilə Sovet İttifaqı Amerikaya qarşı bir qoruma sistemi olaraq qurub: "Səndə olduğu kimi məndə də var" prinsipi ilə yaradıldı. İndi Rusiya da strateji nüvə silahını əlində tutur. Ümumiyyətlə, dünyada nüvə silahı olan ölkələr müdafiə üçün sözügedən "təhlükəni" saxlayırlar. Amma rəsmi Moskva hücum üçün hər hansı bir şəkildə strateji nüvə silahına müraciət edərsə, bu, Rusiyanın sonu deməkdir.

Çünki mütləq şəkildə ona cavab gələcək. Şimal qonşumuza da nüvə silahı tətbiq ediləcək. Bəlkə də söhbət taktiki nüvə silahından gedir. 10-100 kilometr arasında bir sahəni məhv etmək üçün istifadə edilir.

Məsələn, Ukraynanın bir şəhərində çox ciddi bir müqavimət var. Həmin o əraziyə taktiki nüvə silahı ataraq, 10-30 kilometr radiusda canlı qüvvəni və ya hərbi texnikanı dağıtmaq məqsədilə Rusiya tətbiq edə bilər. Adından da bəlli olduğu kimi, ruslar nüvə silahına "sila sderjivaniya" deyirlər. Yəni qarşı tərəfin hər hansı bir fəaliyyətinin qarşısını almaq üçün rəsmi Moskvanın işlətmə ehtimalı var.

Bu, basqın üçün deyil. Ona görə də zənnimcə, strateji və taktiki nüvə silahından istifadə ağıllı fikir deyil. Çünki bu, həmin ölkənin dağılmasına səbəb ola bilər.

Eyni zamanda hər kəs bir-birinə nüvə silahı tətbiq etsə, dünyanın sonu gələcək. Ona görə bütün bunlar ruslar demiş, "liüemer" - yalan bəyanatlardır".

*Qeyd edək ki, Rusiya Təhlükəsizlik Şurası rəhbərinin müavini Dmitri Medvedyev bildirib ki, Rusiyanın müdafiəsi üçün istənilən silahdan, o cümlədən strateji nüvə silahından istifadə edə bilərlər.*

**Sücayət Mehti**



# Yollar da çəkiləcək

## Kommunikasiya xətlərinin işlək vəziyyətə gətirilməsi qaçılmazdır

**Prezident İlham Əliyev Laçın şəhərində Azərbaycan bayrağının ucaldılması mərasimində çıxış edib.**

Ölkə başçısı vurğulayıb ki, biz gələn ilin sonunda Ermənistan sərhədinə həm dəmir yolunu, həm avtomobil yolunu gətirəcəyik: "Biz Ermənistanla sülh müqaviləsini imzalamaq üçün 5 prinsip təklif etmişik. Sözdə onları qəbul ediblər, amma biz bunu əməldə görmürük. Yenə də vaxt uzatma taktikası. Ermənistanın 2020-ci il noyabrın 10-da imzaladığı kapitulyasiya aktına əsasən, erməni silahlı qüvvələri Qarabağdan çıxarılmalı idi. Hələ də tam çıxarılmayıb. Ermənistan Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikasının birləşməsini təmin edən dəhliz verməli idi. Bu günə qədər nəinki dəhliz verilməyib, hətta dəhlizin marşrutu bizə deyilməyib. Heç bir praktiki iş aparılmayıb. Biz isə indi dəmir yolunu Zəngilana qədər çəkmişik. Avtomobil yolunu Zəngilana qədər çəkmişik. Biz gələn ilin sonunda Ermənistan sərhədinə həm dəmir yolunu, həm avtomobil yolunu gətirəcəyik. Ancaq Ermənistan ərazisində heç bir iş görülmür və görünür ki, heç bir iş görmək istəmirlər. Yenə də vaxt uzadırlar".

**Prezidentin çıxışına münasibət bildirən sabiq xarici işlər naziri Tofiq Zülfüqarov "Şərq"ə bildirib ki, bu məsələnin reallaşması onda şübhə yaratmır:** "10 Noyabr birgə bəyanatının 9-cu bəndi icra olunmalıdır. Sənəddə göstərilir ki, kommunikasiya xətləri işlək vəziyyətə gətirilməlidir və Rusiya sülhməramlıları Ermənistan tərəfindəki xəttə nəzarət etməlidir. Bu öhdəlikləri yerinə yetirmək üçün rəsmi İrəvana siyasi təzyiq göstərilir. Əminəm ki, lazım olduğu təqdirdə gücdən də istifadə olunacaq. Bir çox media qurumlarında Zəngəzur dəhlizi mövzusu daha çox səslənir. Burada təkcə Azərbaycan mediasından yox, dünya mediasından da söhbət gedir. Bu baxımdan ölkə başçısının çıxışı zamanı vurğuladığı yolların çəkilməsi məndə şübhə doğurmur".

**Nihat Müzəffər**

**Elanlar**

"JALƏ" UŞAQ BAĞÇASI
VÖEN: 4400677191
"JALƏ" UŞAQ BAĞÇASI (VÖEN:4400677191) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "JALƏ" UŞAQ BAĞÇASININ ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"KASPİAN MOBİL" MMC
VÖEN: 1500504751
"KASPİAN MOBİL"MMC (VÖEN:1500504751) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "KASPİAN MOBİL" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"MİRVARİ PARK RESİDENCE" MMC
VÖEN: 1304652951
"MİRVARİ PARK RESİDENCE" MMC (VÖEN:1304652951) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "MİRVARİ PARK RESİDENCE" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"NƏSİB KİÇİK MÜƏSSİSƏSİ"
VÖEN: 2900558571
"NƏSİB KİÇİK MÜƏSSİSƏSİ"(VÖEN:2900558571) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC"NƏSİB KİÇİK MÜƏSSİSƏSİ"-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"OĞUZ NƏŞRİYYAT" MMC
VÖEN: 1402585701
"OĞUZ NƏŞRİYYAT" MMC (VÖEN:1402585701) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "OĞUZ NƏŞRİYYAT" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"QAFQAZ OTELLƏRI BAKI" MMC
VÖEN: 1305250381
"QAFQAZ OTELLƏRI BAKI" MMC (VÖEN:1305250381) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "QAFQAZ OTELLƏRI BAKI" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"QAFQAZ OTELLƏRI BAKI" MMC
VÖEN: 1305250381
"QAFQAZ OTELLƏRI BAKI" MMC (VÖEN:1305250381) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "QAFQAZ OTELLƏRI BAKI" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"RESİDENCE TOVVER" MMC
VÖEN: 1304663701
"RESİDENCE TOVVER" MMC (VÖEN:1304663701) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "RESİDENCE TOVVER" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"ŞİRVAN İNŞAAT" MMC
VÖEN: 4800052981
"ŞİRVAN İNŞAAT" MMC (VÖEN:4800052981) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "ŞİRVAN İNŞAAT" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"ŞİRVAN NƏQLİYYAT" MMC
VÖEN:4800053081
"ŞİRVAN NƏQLİYYAT" MMC (VÖEN:4800053081) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "ŞİRVAN NƏQLİYYAT" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"ŞİRVAN SƏNAYE" MMC
VÖEN: 4800053101
"ŞİRVAN SƏNAYE" MMC (VÖEN:4800053101) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "ŞİRVAN SƏNAYE" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"TOVUZ QİDA MƏHSULLARI MÜƏSSİSƏSİ" MMC
VÖEN: 7301189921
"TOVUZ QİDA MƏHSULLARI MÜƏSSİSƏSİ" MMC (VÖEN:7301189921) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "TOVUZ QİDA MƏHSULLARI MÜƏSSİSƏSİ" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"URBN İNTERNATİONAL DEVELOPMENT" MMC
VÖEN:1305561341
"URBN İNTERNATİONAL DEVELOPMENT" MMC (VÖEN:1305561341) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "URBN İNTERNATİONAL DEVELOPMENT" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"URBN LANDSCAPES" MMC
VÖEN:1306021221
"URBN LANDSCAPES" MMC (VÖEN:1306021221) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "URBN LANDSCAPES" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"URBN REAL ESTATE GROUP" MMC
VÖEN:1305548201
"URBN REAL ESTATE GROUP" MMC (VÖEN:1305548201) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "URBN REAL ESTATE GROUP" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"URBN REAL ESTATE SERVİCES" MMC
VÖEN:1305549531
"URBN REAL ESTATE SERVİCES" MMC (VÖEN:1305549531) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "URBN REAL ESTATE SERVİCES" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"URBN REAL ESTATE SERVİCES" MMC
VÖEN:1305549531
"URBN REAL ESTATE SERVİCES" MMC (VÖEN:1305549531) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunuvə "GİLAN" MMC "URBN REAL ESTATE SERVİCES" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

# Əsl bal həmişə baha satılıb

## Ukrayna müharibəsi arıçılıqla məşğul olanların dərdini də təzələyib

**Azərbaycanda balın qiymətinin artması dünyada baş verən bahalıqla bağlıdır. Bunu "Azərbaycan Arıçılar Assosiasiyası" İctimai Birliyinin İdarə Heyətinin sədri Bədrəddin Həsrətov deyib. Onun sözlərinə görə, ümumiyyətlə son 10 ildə balın qiyməti dəyişməmişdi. "Balın qiyməti çox bahalaşmayıb.**



Əgər ötən il balın 1 kiloqramını orta hesabla 25 manata almaq mümkün idisə, bu il qiymət 30 manatdır. Qiymət artımının əsas səbəbi bal istehsalı üçün lazım olan ləvazimatların bahalaşması ilə əlaqədardır. Belə ki, arıçılıqda istifadə olunan alətlər, arılara verilən dərmanların hamısı ölkəmizə Türkiyə və Rusiyadan gətirilir. Dünyada baş verən qiymət artımı fonunda arıçılıqda istifadə olunan məhsulların qiymətləri xarici ölkələrdə də artıb" - B.Həsrətov bildirib. O bildirib ki, bahalaşmanın digər səbəblərindən biri də Ukrayna müharibəsidir: "Müharibədən əvvəl ölkəmizə kifayət qədər arıçılıq avadanlıqları gəlirdi. İndi bu proses dayanıb. Daşınma xərclərini də nəzərə alanda qiymət artımı qaçılmaz olur", - deyə B.Həsrətov bildirib.

Balın qiymətindəki artımın "dünyada baş verən bahalıqla bağlı olduğu" iddiası, bir qədər təəccüblü *("gülməli" də yazmaq olardı, tənqidi yumşaltmaq yolunu seçdik- M.R.)* görünür. Arılar okeanın o tayındakı güldən-çiçəkdənmi bal tutur, geri dönəndə gömrükdə onları saxlayıb, gömrük rüsumu tələb edirlər, yol xərci-filan var yoxsa? Bəlkə Kəlbəcərə, Laçına daşınan arı ailəsi yeşikləri xarici ölkələrdə düzəldilib ölkəyə gətirilir, xəbərimiz yoxdu? Arıçılıq avandanlığı deyəndə, nə nəzərdə tutulur? Təəssüf ki, bu suallar açıq qalıb, Azərbaycan Arıçılar Assosiasiyası İH-nin sədri onlara aydınlıq gətirməyib.

**Əvəzində "Şərq" qəzeti əslən Kəlbəcərdən olan yazıçı-jurnalist, ustad Hidayət Elvüsala müraciət etdi. Və Hidayət müəllimə "siz Kəlbəcərdə doğulub, boya-başa çatmısınız, arıçılıqla məşğul olanlar xaricdən hansı avadanlığı alır, xəbəriniz varmı?" soruşdu. H.Elvüsalın cavabı bizi həqiqətən təəccübləndirdi:**



***"Arı yeşiklərinin içinə qoyulan çərçivələri - hansı ki arılar məhz o çərçivələrə şanı toplayır, onları burda, bizim ölkədə hazırlaya bilmirlər"***

- Arı yeşiklərinin içinə qoyulan çərçivələri - hansı ki arılar məhz o çərçivələrə şanı toplayır, onları burda, bizim ölkədə hazırlaya bilmirlər. Bəlkə də hazırlamaq istəmirlər. Bunun özü də bir biznesdir. Kommersiya sirridir. Türkiyədə, Gürcüstanda arıçılar bu çərçivələri özləri hazırlayır. Çərçivənin hazırlanmasında istifadə olunan xüsusi bir material var, o materialı tapmaq çətindir. Bu məsələdə mən arıçılarla razıyam, çünki bunun belə olduğunu bilirəm. O, bahalı materialdır, onu xaricdən gətirirlər. O material olmasa, çərçivə də alınmır və arı da şanı qoya bilmir. Məhz o materialdan düzəldilən çərçivələr olanda arılar sürətlı evciklər düzəldir, hansı ki bal da məhz bu evciklərə doldurulur. Bu, bildiyimiz, haqqında eşitdiyimiz şanıdır. Satışda yəqin görmüsünüz, bal bəzən şanıda satılır, adətən isə şanıdan süzülmüş bal satılır. Təbii halda arılar ağacların koğuşunda şanı qurur, bu, ən keyfiyyətli bal hesab edilir. Amma indiki zamanda kimdir, ağac koğuşunda arının şanı qoymasını gözləyən? Ağacdan bal toplamaq çox mürəkkəb və əzablı işdir. Çərçivələrin düzəldilməsində istifadə olunan həmin materialın hazırlanma qaydasını inanmıram ki, bizdə bilən olmasın. Yəqin ki, var. Amma nə işdisə, onu xaricdən gətirməyə üstünlük verirlər. Doğrudur, balın qiyməti qalxıb. Əsl bal həmişə baha olub. Əsas odur ki, camaata əsl bal adı altında keyfiyyətsiz məhsul satılmasın.

**Məlahət Rzayeva**

# İllərdir eyni vəziyyət...

## Tələbə oğlanlar kirayə evlər tapmaqda çətinlik çəkirlər

**"Yalnız qızlar üçün" başlıqlı elanlarla hər gün qarşılaşırıq. Ev sahiblərinin əksəriyyəti mənzillərini daha çox subay qadınlara, xüsusən də tələbə qızlara kirayə vermək istəyir. Oğlan adı gələndə çoxları qəti şəkildə "yox" cavabını verirlər.**

Mənzil sahiblərinin böyük əksəriyyəti bunun səbəbini qızların daha məsuliyyətli, evə, əşyalara qarşı daha ehtiyatlı, səliqəli davranması ilə əlaqələndirirlər. Tələbə oğlanların evi daha çox istismar etdiyini düşünürlər.

Ekspertlər isə deyir ki, problem bu günün deyil. Əvvəllər də tələbə oğlanlar ev tapmaqda çətinliklər çəkiblər.

**Sosioloq Sadiq Rüstəmlinin sözlərinə görə, oğlanlara ev verilməməsinin səbəbi qızlarla müqayisədə evi təmiz saxlaya bilməmələri, evdəki əşyalarla olduqca kobud rəftardır.** Bundan başqa, bir çox hallarda iki oğlan tələbə götürdüyü mənzilə başqa oğlan dostlarını da gizli şəkildə yerləşdirirlər ki, bu da adətən evini kirayə verən insanın narahatlığına səbəb olur. Ümumiyyətlə, azərbaycanlı oğlanlar kirayə ev öhdəliklərinə riayət edə bilmir: "Qız uşaqları evdən daha səliqəli istifadə edirlər. Oğlanlar isə bu istiqamətdə xeyli çətinliklərlə üzləşirlər. Təbii ki, mentalitet məsələlərinin də rolu böyükdür. Bəzən ailələr öz həyətlərində olan mənzilləri kirayə verir və istəmirlər ki, burada yad adamlar, xüsusilə də oğlan uşaqları yaşasınlar. Bəzi ailələr evdəki bir otağı kirayə verirlər. Bu, daha çox qızlara əlverişli şərait yaradır. Oğlanlar üçün imkanlar məhdudlaşır. Buna görə də bir sıra proyektlərin həyata keçirilməsinə ehtiyac yaranıb. Belə layihələri həyata keçirərkən oğlan tələbələrin yerləşdirilməsinə fokuslanmaq lazımdır. Bu, onların tərbiyəsi ilə bağlı cəmiyyətdə neqativ halların formalaşmasının da qarşısını alar. Düşünürəm ki, belə olsa, onların təhsilə meyli də artar. Proqramın genişləndirilməsi fonunda növbəti mərhələdə qız uşaqlarının kirayə problemini həll etmək lazımdır".



***Subay qadınlara, xüsusən tələbə qızlara isə yaşıl işıqdır***

**Ekspert deyib ki, digər önəmli səbəb isə qızlardan fərqli olaraq kirayə yaşayan oğlan tələbələr evləri tez-tez dəyişə bilirlər.** Çox halda bir neçə tələbə bir evdə kirayə qalır. Aralarında mübahisə düşən kimi biri digərindən aralanır ki, yox, mən artıq sənlə qalmaq istəmirəm: "Bu zaman onlar mənzil sahibinə müraciət edirlər ki, məsələn, "biz 4 nəfər idik, iki nəfər getdi. Kirayə qiymətini yarıbayarı azaldın". Təbii ki, bu da kirayə verənə sərfəli olmur. Yəni bu baxımdan oğlan tələbələr bəzən 9 aylıq tədris müddətində bir neçə dəfə ev dəyişirlər. Hətta eləsi olub ki, 5 dəfə mənzil dəyişən tələbələrə rast gəlmişəm. Təsəvvür edin, onların orada gələn aylarda qalıb, qalmayacaqları qeyri-müəyyəndir. Əksəriyyəti üçün fərqi olmur harada qalmaları. Təki onlara yer olsun. Hətta bəzən kirayə ev verənlər şikayətlənirlər ki, hansısa bir müddətə, aya çatanda tələbə oğlan borclu qalır. O pulu verməmək üçün belə evi tərk edirlər. Qısacası, ev sahibinə ciddi ziyan vururlar".

Sosioloqun fikrincə, kirayə mənzillər verilərkən müqavilə bağlanarsa, hüquqi qaydada bu münasibətlər tənzimlənərsə, belə söhbətlərə yavaş-yavaş son qoyular: "Kirayə mənzillərin verilməsi daha çox qara bazarda maklerlərə hörmət edilməsi ilə reallaşır, heç bir hüquqi əsası olmadığı üçün də bu problemlər yaranır. Halbuki, tələbələrə mənzil kirayə verilərkən mənzilin oğlan-qız üstündə dayanması əsassızdır".

**Şəymən**

**"Bakı Hərrac Mərkəzi" MMC**

Lot 373/22. Salyan rayonu, Kürsəngi kəndi ərazisində 8 ha torpaq sahəsində yerləşən "İEP" tipli daşınar istixana kompleksi. İlkin satış qiyməti 5800000 manat; Açıq hərrac 20 oktyabr 2022-ci il tarixdə saat 11:00-da keçiriləcəkdir. Satış qiymətinin 5 %-i həcmində beh hərrac təşkilatına ödənilməlidir. Alış qiyməti 7 təqvim günü ərzində sifarişçi icra şöbəsinin hesabına ödənilməlidir. Açıq hərracda iştirak etmək üçün lazımi sənədlər: F/Ş şəxsiyyət vəsiqəsi, H/Ş təsis sənədləri.

**Ünvan:** *Bakı şəhəri, Səbail rayonu, Badamdar qəsəbəsi, Badamdar şossesi 27. ("AVİS" aptekin arxası). Tel: 055-206-66-67, rəsmi sayt: http://e-lot.az*

**Elan**

İsmayılova Vüsalə Nazim qızına "AAAF İnşaat" MMC tərəfindən verilmiş M-2124 nömrəli alqı-satqı müqaviləsi itdiyi üçün etibarsız sayılır.

bakcell

# Bakcell xidmətlərində yaranmış fasilə ilə bağlı məlumat verib

**Məlum olduğu kimi, sentyabrın 21-də axşam saatlarında yaranmış texniki nasazlıq nəticəsində Bakcellxidmətlərindən istifadə etmək mümkün olmayıb.**

Bakcell şirkəti bildirir ki, hazırda şəbəkənin təkmilləşdirilməsi və ən son texnoloji həllərin tətbiqi istiqamətində beynəlxalq tərəfdaşlarla birlikdə böyük layihələr həyata keçirilir.

21 sentyabr tarixində axşam saatlarında şirkətin xidmətində yaranmış fasilə Nokia ilə birlikdə aparılan genişmiqyaslı modernizasiya işləri ilə bağlı olub.

Problemin həlli istiqamətində "Nokia"nın beynəlxalq dəstək komandası və "Bakcell"in texniki heyəti birlikdə çalışıb və texniki nasazlıq tam aradan qaldırılıb.

Xidmətlərimizingöstərilməsində yaranan fasiləyə görə abunəçilərimizdən üzr istəyirik.

# "Nar" ölkədə jest dilininin inkişafına töhfə verməyə davam edir

**Ünsiyyəti hər kəs üçün daha əlçatan etməyi hədəfləyən "Nar",BMT tərəfindən qəbul olunmuş 23 Sentyabr Beynəlxalq Jest Dili gününə öz dəstəyini ifadə edir.**

Belə ki, eşitmə və nitq məhdudiyyətli insanların cəmiyyətə inteqrasiyasının önəmini dərk edərək mobil operatorKSM strategiyası çərçivəsində bu istiqamət üzrə mühüm sosial əhəmiyyətə malik layihələr həyata keçirir.

"Regional İnkişaf" İctimai Birliyinin "Sosial layihələr" müsabiqəsinin qalibi olan "Doğma jest dili" lüğətinin ölkədə ilk dəfə elektron versiyası - jestdili.az saytı "Nar"ın da dəstəyi ilə ərsəyə gətirilib. Bu elektron lüğət artıq bir ildir ki, Azərbaycanda eşitmə məhdudiyyətli insanların vahid jest dili lüğəti kimi istifadə olunur. 3000-ə qədər söz və söz birləşməsinin izahedici mətnləri, 2000-dən çox jestin şəkilləri və videoları yerləşdirilən sayt eşitmə və nitq məhdudiyyətli şəxslər və onların yaxınları, həmçinin bu qrup insanlarla işləyənlər üçün böyük əhəmiyyət kəsb edir. Elektron lüğət Azərbaycan və rus dillərindədir,hər kəs üçün açıqdır və mobil cihazlar üçün də uyğunlaşdırılıb. Layihə haqqında ətraflı məlumatı hazırladığımız videoçarxdan izləyə bilərsiniz.

Bundan başqa, mobil operator 2016-cı ildən bölgələrdə və paytaxtda eşitmə məhdudiyyətli insanların əmək yararlılığına və cəmiyyətə inteqrasiyasına dəstək üçün "Təlim Məktəbi" layihəsini həyata keçirir. Davamlı layihələrdən olan "Təlim Məktəbi" sayəsində eşitmə və nitq məhdudiyyəti olan insanlar müxtəlif peşələr üzrə praktiki təlimlərdən keçir və onların uyğun iş yerləri ilə təmin olunmasına dəstək göstərilir. Ümumilikdə, təlimlərdən bugünə qədər 100-dən çox insan faydalanıb.

"Nar"ın eşitmə və nitq məhdudiyyətli insanların cəmiyyətə inteqrasiyası üçün sosial layihələri həm də BMT Qlobal sazişinin bir üzvü olaraq dayanıqlı inkişaf məqsədlərinə olan öhdəliyinə sadiqliyinin ifadəsidir.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2695



## Heykəlin "smitini" oğurladılar

Bələdiyyə orqanları onun tapılması üçün hərəkətə keçiblər

**Simitçi heykəlinin "simit"ləri oğurlanıb.**

Türkiyədə "Yeni məscid" meydanında tarixi Eminönü bölgəsinin simitini təmsil edən simitçi heykəlinin "simitləri" oğurlanıb. Bələdiyyə orqanları oğurlanmış bürünc simitlərin tapılması üçün işə başlayıblar. "Şərq" "TRT Haber"ə istinadən xəbər verir ki, Fatih Bələdiyyəsi tərəfindən 2016-cı ildə heykəltəraşlar Mustafa Burnazoğlu və Ərsin Alyakut üçün sifariş verilmiş simitçi heykəlinin 30 bürünc simiti olub. Pulunu tarazlaşdırmağa çalışan uşağa simit verən simit satıcısının təsvir olunduğu heykəlin hazırlanması 3 ay çəkib.

Yeni Məscid meydanında heykəlin tikilməsində min ton tuncdan istifadə olunub. Eminönünə gələnlərin böyük marağına səbəb olan simitçi heykəlinin piştaxtası 3 aydır simitsiz qalıb. Heykəlin üstündəki simitlər oğurlanan zaman simit piştaxtasının bir hissəsi də zədələnib. Fatih Bələdiyyəsi rəsmiləri oğurlanmış bürünc simit heykəllərinin tapılması üçün işə başladıqlarını və heykəlin bərpa olunacağını bildiriblər.

Günəş Mərd

## Məktəb həyatında ölüm...

14 yaşlı şagird həbs olundu



**İstanbulun Küçükçekme rayonunda 12 yaşlı orta məktəb şagirdi Səməd Gülün ölümü ilə bağlı 14 yaşlı şagird həbs edilib.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, ürək xəstəsi olan ölən uşağın həbs edilən şagirdlə ölümündən təxminən yarım saat əvvəl dava etdiyi müəyyən edilib.

İstanbulda polis ölüm hadisəsi ilə bağlı araşdırmaya başlayıb. Səmədin ölümündən təxminən yarım saat əvvəl 14 yaşlı M.N.O.nın dava etdiyini müəyyən edən qruplar uşağı nəzarətə götürüb.

## Portuqaliyada intiharlar ən yüksək həddə çatıb



**2021-ci ildə Portuqaliyada intiharların sayı kəskin şəkildə artıb.**

**Azərtac xəbər verir ki, bu barədə Portuqaliya Ədliyyə Nazirliyinin hesabatında deyilir. 2021-ci ildə 952 intihar qeydə alınıb. Bu, 2018-ci ildən bəri ən yüksək göstəricidir. O vaxt 1020 nəfər öz həyatına son qoymuşdu. Növbəti iki ildə tendensiya get-gedə əksilən olub: 2019-cu ildə - 907, 2020-ci ildə - 880 intihar qeydə alınıb.**

**Milli Təcili Tibbi Yardım İnstitutunun (INEM) məlumatları da göstərir ki, 2019-2021-ci illər dövründə riskli davranış və intihara cəhdlərlə bağlı zənglərin sayı 39 faiz artıb. Ötən il belə zənglərin sayı 801-dək yüksəlib.**

**Psixi sağlamlıq sahəsində Siyasətin Milli Əlaqələndirmə İdarəsinin üzvü Hoakim Souza Qaqo intihara meyilliliyin ehtimal edilən izahı kimi pandemiyadan sonrakı sindromun adını çəkir ki, buna da işin formatının dəyişməsi, işsizlik, iqtisadi çətinliklər və təcridolunma kimi amillər şərait yaradır.**

## Qeyri-adi mini ev

Çoxfunksiyalı silindrik evin polad konstruksiyası ağacla örtülüb



**"Casa Ojala" adlanan unikal kiçik ev 27 kvadratmetr sahəyə və sadə struktura malik olmaqla beton təməl üzərində qurulub. Azərtac xarici saytlara istinadla xəbər verir ki, ev üçün xüsusi hazırlanmış kompakt mebel, hamam otağına qədər istənilən ərazini açmağa imkan verən sürüşmə divarları - bütün bunlar xarici dünya ilə gözəl təmas yaradır. Çoxfunksiyalı silindrik evin polad konstruksiyası ağacla örtülüb. Bundan başqa, mini ev mərkəzi kommunikasiyalardan uzaqda quraşdırılmasına imkan verən sistemlərlə təchiz olunub. Belə mini mənzillər daimi yaşayışla yanaşı, qonaq evi, studiya və ya otel otağı kimi nəzərdə tutulub.**

## Gəlininin açıqlaması Viktoriyanı qəzəbləndirdi



**Britaniyalı məşhur modelyer Viktoriya Bekhem gəlini Nikol Peltzin sonuncu müsahibədən sonra qəzəblənib.**

**Axşam.az xəbər verir ki, bu barədə modelyerə yaxın mənbə "The Sun"a bildirib. Mənbənin sözlərinə görə, həm də dünyaca məşhur keçmiş futbolçu Devid Bekhem gəlinləri ilə münasibətləri yaxşılaşdırmağa çalışırlar. Bu səbəbdən Viktoriya Nikolanın iddiaları inkar etmək əvəzinə, düşmənçilikləri ilə bağlı şayiələr yaymağa davam etməsindən çaşqındır. Bundan əlavə, Viktoriya və Bekhem toydan sonra oğulları Bruklinlə az vaxt keçirdiklərinə çox kədərlidir, halbuki o, həyat yoldaşının ailəsi ilə tez-tez görüşür.**

***Qeyd edək ki, tərəflər arasında mübahisə Nikolun toyda Viktoriyanın seçdiyi gəlinliyi geyinməməsi ilə başlayıb.***



# Fərhad kimi ADAM

Dağları dəlib su çəkdi, 70 ildən sonra da yaratdığı əsərə baxmağa getdi



**Türkiyənin Sivas bölgəsində dahi Nizaminin qəhrəmanı Fərhadın prototipi yaşayırmış. Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, Sivasın Qazi kəndində yaşayan 85 yaşlı Xəlil Dəmir 70 il əvvəl atası və qardaşıyla birlikdə dağları dələrək kənddəki dəyirmana su gəlsin deyə kanal çəkdiklərinin hekayəsini anladıb. Əl əməyi ilə yaratdıqları xarüqəni 70 il sonra ziyarət edən Xəlil Dəmir bu işdə hədindən artıq çətinlik çəkdiklərini, lakin məqsədlərindən dönmədiyini deyib:**

"Kənddə dəyirman vardı, amma susuz idi. Kənd əhalisi dəyirmanı işlədə bilmirdi. Buğda üyütmək üçün məcbur qalıb, qonşu kəndə gedirdik. O zaman atam kənd dəyirmanı üçün mütləq su yolu açmağı qarşısına məqsəd qoydu. Atam və biz - 4 qardaş kəndimizin dəyirmanına su gəlsin deyə sərt qayalarla mübarizəyə başladıq. O zamanlar çox çətin idi. Yeməyə çörəyimiz yoxdu, geyinməyə libasımız. Kiçik qardaşım içməli su gətirirdi, ondan içib işləyirdik, dağ eşirdik, qayaları dələrdik. Alətləri də qonşulardan almışdıq. Külüngü bir qonşudan, gürzü, beli birindən Ac-susuz işləyə-işləyə bu kanalı açdıq. İşə başlayanda 1952-ci il idi, 1955-də işi bitirdik. 3 ilə suya yol aça bildik. Çox çətin idi, qohumlar kömək etmədi, hərəsi yaxasını bir tərəfə çəkdi. Atam dedi ki, nə olursa-olsun, bu kanalı düzəldəcək. Atam güclü, ağıllı, işbacaran idi, bura gəlib bu qayanı torpaq kimi eşirdi. Biz qardaşlar atam kimi işləyə bilməsək də, ona kömək edərdik". X.Dəmir 70 il əvvəl qazdıqları kanalın içinə düşüb. Kanalın uzunluğu 300 metr, dərinliyinin 3 metr olduğunu deyib, amma zaman keçdikcə kanal istifadəsiz qaldığından yavaş-yavaş torpaqla dolub, dərinliyi azalıb. X.Dəmir qardaşlarından birinin məhz bu kanalda boğulduğunu deyib: "Atam vəfat edəndən sonra qardaşım dəyirmanı işlədirdi. Maddi vəziyyətimiz bu kanal və dəyirman sayəsində düzəldi. Qardaşım hər dəfə abdəst almaq üçün bura gəlirmiş, kanalın suyu ilə yuyunurmuş. Bir dəfə də suya düşüb. Cəsədi 80 gün suyun içində qalıb. Biz çox əziyyətli günlər yaşamışıq. İndiki gənclər o əziyyətlərdən xəbərsizdilər. Hər şeyi hazır alırlar. Bizim gəncliyimizdə çörəyi analarımız, nənələrimiz bişirərdi, paltarları da əlləriylə tikərdilər".

Məhələt Rzayeva



# Robot böcəklər insan həyatını xilas edəcək

Bu sistemdən dağıntılar altında qalanların yerlərini aşkar etmək üçün istifadə olunacaq



**Yapon alimləri tarakanların belinə yerləşdirdikləri kiçik cihazlarla həşəratların hərəkətini idarə edə bilirlər. "Şərq" xarici mediaya istinadən xəbər verir ki, hazırlanma mərhələsində olan layihə həyata keçirilərsə, robot böcəklərdən təbii fəlakətlərdə dağıntılar altında qalanların yerlərini aşkar etmək üçün istifadə oluna biləcək.**

Həşəratın kürəyinə insan saçının 1/25-i qədər nazik günəş batareyalarından ibarət plyonka yerləşdirilib ki, bu da onun günəş enerjisi ilə doldurulmasına imkan verəcək.

Böcək "Bluetooth" vasitəsilə göndərilən siqnalla hərəkət edir.

Mütəxəssislər robotların əvəzinə həşəratlardan istifadənin onlara enerji doldurmada üstünlük verdiyini deyirlər.

Qeyd olunur ki, eyni ölçülü robotun akkumulyatoru həşəratla müqayisədə xeyli qısa müddətdə tükənir.

Hazırda həşəratın hərəkətini idarə etmək üçün istifadə edilən elektron hissələrin qiymətinin təxminən 35 dollar olduğu bildirilir.

Tədqiqatın ən başında olduqlarını deyən yapon tədqiqatçılar, gələcəkdə böcəyin arxasına kamera kimi fərqli cihazlar yerləşdirməyi də planlaşdırır.

Turan

## Mərasim 30 dəqiqə çəkdi

Hande ilə Aleksandrın toyu son 100 ildə hersoqluqda baş tutan ilk toy mərasimidir



**Mersinin Tarsus əyalətində doğulmuş, Niderlandda təhsil alan 29 yaşlı Hande Macit hersoqinya titulunа sahiblənib. Monarxiyalı respublika üsuli-idarəsində imperator, kral və şahzadədən sonra ən yüksək titul hersoqdur.**

Hande Macit hersoqinya titulunu təhsil illərindən tanış olduğu Almaniyanın Mecklenburg-Vorpommern hersoqluğunun vəliəhdi, 31 yaşlı şahzadə Georg Aleksandrla evləndiyi üçün qazanıb. "Milliyet.com"da yer alan məlumatda bildirilir ki, Hande ilə Aleksandrın toyu son 100 ildə hersoqluqda baş tutan ilk toy mərasimidir. Toy mərasimi cəmi 30 dəqiqə çəkib. Mərasim kilsədə baş tutub. Əvvəlcə B.Britaniya kraliçasının xatirəsi 1 dəqiqəlik sükutla yad edilib. Toyda ümumilikdə 500 nəfər olub. Handenin ailə üzvləri, yaxın qohumları da mərasimə qatılıb. Qeyd edilir ki, cütlük iyun ayında kəbin kəsdirib. Hazırda isə Niderlandın Rotterdam şəhərində yaşayırlar. Gələcəkdə hersoq ailəsinin Vətənə köçməsi planlaşdırılır. Hande Aleksandrla bir dost məclisində tanış olub, aralarında dostluq münasibətləri getdikcə sevgiyə dönüb. Hande Macid ailəsiylə birlikdə yoqurt firması işlədir.

Məlahət



## Conni Depp Coel Riçlə eşq yaşayır

**Hollivud ulduzu Conni Deppin vəkillərindən biri Coel Riçlə eşq yaşadığı iddia olunub.**

Axşam.az xəbər verir ki, bu barədə "Daily Mail" nəşri məlumat yayıb. Bildirilib ki, Depp keçən il İngiltərədə "The Sun" nəşrinə qarşı məhkəmədə onu müdafiə edən vəkili Riçlə münasibətdədir. Həmçinin, Riç Deppi dəstəkləməyə və Virciniya ştatında Hörd əleyhinə keçirilən son məhkəmə prosesinə gəlib. Jurnalistlərin çəkdiyi fotolarda onların bir-birinə yaxın olmaları, hətta bir kadrda aktyorun əlini Riçin kürəyinə qoyub, onun qarşısından keçməsinə icazə verməsi diqqət çəkib. Maraqlı məqam odur ki, o, bu prosesdə Deppin komandasının bir hissəsi deyildi. Məhkəmə zamanı onlar da eyni hoteldə qalıblar.

*Xatırladaq ki, aktyorun daha əvvəl Virciniya ştatında keçmiş həyat yoldaşı, amerikalı aktrisa Ember Hördlə qalmaqallı məhkəmə işində ona yardımçı olan vəkil Kamila Vasquezlə münasibətdə olduğu deyilsə də, şayiələr təsdiqini tapmamışdı.*

*Qeyd edək ki, Riç müştəriləri arasında Şahzadə Harri və hersoqinya Meqan Marklın da olduğu "Schillings" beynəlxalq hüquq şirkətinin ortağıdır.*